

Qlobal iqtisadi böhran fonunda AZƏRBAYCAN ÜÇÜN NİKBİN PROQNOZLAR

5

# Prezidentdən XƏBƏRDARLIQ:

## Heç kim qanundan üstün ola bilməz!



2

**Prezident İlham Əliyev Araz Əhmədovu Masallı, Əkbər Abbasovu Lerik və Elvin Paşayevi Göygöl rayon icra hakimiyyətlərinin başçısı təyin olunmaları ilə əlaqədar qəbul edib**



Səs

№ 130 (6571) **26 iyul** 2022-ci il. **Qiymәti 60 qәpik**



# Taxıl dəhlizi: Böhran bitdimi?

Türkiyədə Ukraynanın taxıl ixracının qarşısının alınması ilə bağlı razılıq əldə olundu, bəs sonra?

8



## DİQQƏT:

Laçında daha bir erməni həyasızlığı!

13



## Kommunal xidmətlərdə ciddi dəyişikliklər olacaq

15



“Bəzi məmurlar Prezidentin növbəti xəbərdarlığından ciddi nəticə çıxarmalıdır”

6

## Güzgü çoxdur, baxan yoxdur...



11

## ŞOK:



2 gündə yol qəzalarında 10 nəfər ölüb!

16

## Niyə milli filmlərimiz xarici filmlər qədər sevilmir?



7

# Prezidentdən XƏBƏRDARLIQ:
# Heç kim qanundan üstün ola bilməz!

## Prezident İlham Əliyev Araz Əhmədovu Masallı, Əkbər Abbasovu Lerik və Elvin Paşayevi Göygöl rayon icra hakimiyyətlərinin başçısı təyin olunmaları ilə əlaqədar qəbul edib



**Prezident İlham Əliyev Araz Əhmədovu Masallı Rayon İcra Hakimiyyətinin başçısı, Əkbər Abbasovu Lerik Rayon İcra Hakimiyyətinin başçısı və Elvin Paşayevi Göygöl Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edib. Dövlətimizin başçısı görüşdə çıxış edib.**

Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, son illərdə bütün rayonlarda regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası nəticəsində geniş abadlıq-quruculuq işləri görülüb, böyük infrastruktur layihələri icra edilib və uzun illər ərzində insanları narahat edən problemlərin böyük hissəsi aradan qalxıb. Dövlət başçısı qeyd edib ki, elektrik enerjisi ilə təchizat, qazlaşdırma, yol infrastrukturu, suvarma, içməli su layihələri, sosial infrastruktur layihələri icra olunub, hər rayonda müasir xəstəxana, tibb ocaqları, bir çox məktəblər inşa edilib:

"Təbii ki, bu infrastruktur layihələri iş yerlərinin yaradılmasına da xidmət göstərmişdir. Sahibkarlar da bölgələrdə bütün quruculuq işlərində fəal iştirak edirlər. İş yerlərinin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Çünki ölkə əhalisi artır. Azərbaycan müstəqilliyə qovuşanda əhalimiz 7 milyondan bir qədər çox idisə, bu gün 10 milyondan çoxdur. Bu, təbii olaraq tələb edir ki, iş yerlərinin açılması prosesi daimi xarakter alsın. Eyni zamanda, biz işsizliklə bağlı mübarizədə də ciddi addımlar atırıq, ödənişli sosial işlərin yaradılması da geniş vüsət almışdır. Hər rayon üzrə kvota var. Əfsuslar olsun ki, bəzi rayonlarda bu işlərə cəlb ediləcək insanlar işlərə cəlb olunmamış, əksinə, onlara çatacaq vəsait rayon icra başçıları və digər məsul şəxslər tərəfindən mənimsənilmişdir.

Bilirsiniz ki, bir neçə keçmiş icra başçısı cinayət məsuliyyətinə cəlb edilmişdir, bəzilərinin hökmü verilmişdir, bəzilərinin işləri məhkəmədədir. Bu, onu göstərir ki, heç kim qanundan üstün ola bilməz. Mən bütün icra başçılarını vəzifəyə təyin edərkən göstərişlərimdən biri o idi ki, korrupsiyaya, rüşvətxorluğa qarşı biz amansız mübarizə aparmalıyıq və icra başçıları burada nümunə olmalıdırlar. Əfsuslar olsun ki, bəziləri əyri yolla gediblər və bu gün bunun acısını çəkirlər. Bu, hər bir dövlət məmuru üçün dərs olmalıdır.

Siz daim insanlarla təmasda olmalısınız. Bütün kəndlərdə olmalısınız, kənd camaatının qayğıları ilə yaşamalısınız, onları narahat edən problemləri onların dilindən eşitməlisiniz və imkan daxilində bu problemləri həll etməlisiniz. Nəyə gücünüz çatırsa, rayon daxilində həll etməlisiniz. Elə məsələlər var ki, onlar dövlət orqanları tərəfindən həll olunmalıdır. Bu barədə də aidiyyəti dövlət orqanlarına müraciət etməlisiniz - Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, aidiyyəti dövlət qurumlarına ki, mövcud problemlər öz həllini tapsın. Əgər hər bir kəndin problemi həll olunarsa, demək olar ki, ölkədə insanları narahat edən ciddi problem qalmayacaq.

Əlbəttə, fəaliyyətinizdə sosial ədalət prinsipinə əməl etməlisiniz. Sosial ədalət, bütövlükdə ədalət prinsipləri cəmiyyətin əsas prinsiplərindən biridir və sağlam cəmiyyətdə ədalət hökm sürür. Biz isə sağlam cəmiyyət qururuq və demək olar ki, bu işdə müvəffəqiyyətlər qazanmışıq. Bu gün Azərbaycan cəmiyyəti həmrəylik nümayiş etdirir, Azərbaycan cəmiyyəti ölkədə gedən prosesləri dəstəkləyir, bizim xarici, daxili siyasətimizi dəstəkləyir. Çünki bizim siyasətimiz Azərbaycan xalqının rifah halının yaxşılaşmasına istiqamətləndirilib. Bizim siyasətimiz ölkəmizin beynəlxalq nüfuzunu gücləndirir. Bizim siyasətimiz nəticəsində Azərbaycan hərbi və ondan sonra siyasi yollarla Ermənistanın işğalçılıq siyasətinə son qoydu, əzəli torpaqlarımızı azad etdi, tarixi ədaləti bərpa etdi, milli qüruru bərpa etdi."

### "Biz kiminsə tamahına görə ölkəmizin uğurlu inkişafına kölgə sala bilmərik"

Prezident İlham Əliyev qeyd edib ki, şəhid ailələrinə xüsusi diqqət göstərilməlidir. Dövlət tərəfindən bu diqqət daim göstərilir. İkinci Qarabağ müharibəsindən əvvəl və İkinci Qarabağ müharibəsindən sonra şəhid ailələri daim diqqət mərkəzindədir: "Bilirsiniz ki, mənim şəhid ailələri, müharibə əlilləri ilə çoxsaylı görüşlərim olub. Onların məişət problemləri dövlət xətti ilə həll olunur, 12 min 500-dən çox şəhid ailəsinə dövlət tərəfindən mənzillər, fərdi evlər verilmişdir, minlərlə minik maşınları verilmişdir. Bu proses davam etdirilir. Bakı, Sumqayıt və Abşeron rayonlarında şəhid ailələrinin evlə təminatı məsələləri artıq yekunlaşmaq üzrədir. Digər rayonlarda da dövlət xətti ilə bu iş görüləcək. Yəni, dövlət öz üzərinə düşən vəzifəni icra edir. O cümlədən şəhid ailələrini, müharibə əlillərini işlə təmin etmək üçün çoxsaylı tədbirlər həyata keçirilir. Əsas odur ki, yerlərdə də bu kateqoriyadan olan insanlara diqqət göstərilsin. Rayon icra orqanlarının nümayəndələri onlara biganə qalmasınlar, əksinə, daim onların yaşayışı ilə maraqlansınlar, onların məşğulluğu ilə maraqlansınlar.

Biz bu Qələbəni onlara - şəhidlərimizə, müharibə əlillərinə, müharibə iştirakçılarına borcluyuq. Əlbəttə, dövlət qətiyyət göstərdi, biz öz iradəmizi ortaya qoyduq, heç nəyə baxmadan, heç kimdən çəkinmədən, "öldü var, döndü yoxdur" deyərək torpaqlarımızı azad etdik. Bu, dövlət siyasətidir və dövlətin gücüdür, vətəndaşlarımızın həmrəyliyidir. Amma onu da heç kəs unutmamalıdır ki, azad edilmiş torpaqlarımıza bayrağımızı sancan bizim qəhrəman əsgər və zabitlərimiz olub. Onlar öz canlarını fəda edib, onlar sağlamlığını itirib, onlar heç nəyə baxmadan, qorxmadan ölümə gedərək Vətənimizi işğalçılardan xilas ediblər. Ona görə hər bir dövlət məmurunun, nəinki dövlət məmurunun, hər bir insanın borcudur ki, onlara arxa, dayaq olsun. Yenə də deyirəm, dövlət və mən Prezident kimi daim onların problemləri ilə maraqlanıram, bu problemləri həll edirəm, daim onlarla bir yerdəyəm. Hər bir dövlət məmuru da, bax, eyni hərəkətlər etməlidir.

### "Mən sizdən fəal iş gözləyirəm, nəticə gözləyirəm. Əminəm ki, siz bu yüksək etimadı dərk edərək, dediyim kimi işləyəcəksiniz"

Rayonların inkişafı ilə bağlı siz özünüz təşəbbüs göstərməlisiniz. Bəzi hallarda yerli icra orqanları bir qədər tənbəllik edirlər, ya gözləyirlər ki, dövlət tərəfindən hansısa layihələr icra ediləcək, ya da ki, sahibkar gəlib onların qapısını döyəcək. Belə olan halda, bəzi hallarda sahibkarlar qarşısında müəyyən qanunsuz, əsassız tələblər irəli sürülür. Siz özünüz sahibkarları rayonlarınıza cəlb etməlisiniz, həm yerli sahibkarları, həm də xarici sahibkarları. Xüsusilə nəzərə alsaq ki, Göygöl, Masallı və Lerik rayonlarının turizm potensialı çox zəngindir və bu rayonların füsunkar təbiəti bizim böyük sərvətimizdir - meşələr, dağlar, bulaqlar, çaylar, şəlalələr. Yəni, bu rayonları, sözün əsl mənasında, turizm mərkəzinə çevirmək hesab edirəm ki, əsas vəzifələrdən biridir.

Son illərdə bir çox işlər görülüb. Mən dəfələrlə Göygöl, Lerik və Masallı rayonlarında olarkən, o cümlədən bu məsələ ilə də maraqlanırdım və öz tövsiyələrimi verirdim. Bilirəm ki, bu rayonlarda müasir istirahət zonaları, otel kompleksləri inşa edilib və əlbəttə ki, bu proses daha geniş vüsət almalıdır. Bir neçə il bundan əvvəl, hətta Vətən müharibəsinə qədər biz Göygöl gölünü də ictimaiyyət üçün açdıq. Mən əvvəlki illərdə, müharibədən əvvəlki illərdə də maraqlanırdım ki, nə üçün Göygöl gölümüzə, bizim təbii sərvətimizə insanların yaxınlaşması, yaxud da ki, gəlişi mümkün deyil. Bunu onunla əsaslandırırdılar ki, təmas xəttinə yaxın olan ərazidir. Ondan sonra araşdırmağa başladıq və gördük ki, Göygöl gölü turizm obyekti kimi və bu gölün ekoloji vəziyyəti, ekosistemi qorunmaq şərtilə açıla bilər və bunu da etdik. İndi minlərlə insan hər gün, xüsusilə yaz-yay mövsümlərində Göygöl gölünə gəlir, bu gözəl mənzərəni seyr edir, xüsusilə Vətən müharibəsindən sonra ki, artıq biz düşməni torpaqlarımızdan qovduq. Əlbəttə ki, bu gözəl yerin turizm üçün çox böyük əhəmiyyəti var. Eyni zamanda, nəzərə alsaq ki, bu gün Göygöl rayonundan Kəlbəcər rayonuna yol açılır, tunel çəkilir, bu rayonun Kəlbəcər-Laçın zonasının inkişafı ilə bağlı xüsusi rolu vardır.

*Ardı Səh. 3*

# Prezidentdən XƏBƏRDARLIQ:

## Heç kim qanundan üstün ola bilməz!

Əvvəli Səh.2

Digər rayonlarda da turizm potensialı çox zəngindir. Vaxtilə Lənkəran-Lerik yolu bərbad vəziyyətdə olduğu üçün Lerik rayonuna demək olar ki, turizm axını yox idi. Mənim göstərişimlə yol əsaslı şəkildə təmir olundu, yenidən quruldu. Lerik rayonuna da turizm axını başlamışdır. Bu rayonun da çox böyük tarixi, çox böyük sərvətləri var. Masallı rayonunun da həmçinin. Masallı rayonunun dağlıq hissəsi, düzən hissələri var. Bir daha demək istəyirəm ki, bu rayonların turizm potensialı çox zəngindir."

Dövlətimizin başçısı qeyd edib ki, əfsuslar olsun ki, əvvəlki illərdə bəzi dövlət məmurları və bəzi sahibkarlar tərəfindən böyük torpaq sahələri hasarlanmışdır, qanunsuz zəbt edilmişdir. Kənd təsərrüfatı üçün nəzərdə tutulan torpaqlarda ya evlər tikilmişdir, ya da ki, sadəcə olaraq, o sahələr hasarlanıb kiminsə mülkiyyətinə çevrilmişdir:

"Biz bu məsələni bu yaxınlarda ciddi araşdırmağa başladıq və gördük ki, burada çox böyük pozuntular var. Vəzifəli şəxslər yerli icra orqanlarının nümayəndələrinə göstəriş verirdilər ki, o torpağı mənə ver, bu torpağı mənə ver. Beləliklə də torpaq fondu azalırdı və torpaqların qanunsuz zəbt edilməsi prosesi əfsuslar olsun ki, geniş vüsət almışdır. Bu, təkcə regionlara aid olan məsələ deyil, Bakı şəhərində, Abşeron yarımadasında da belə hallar var. Yəqin siz də bilirsiniz, bu yaxınlarda ictimaiyyətin bir qrup nümayəndəsi mənə müraciət etmişdir ki, böyük tarixə malik olan Buzovna qayaları bəzi insanlar tərəfindən zəbt edilmişdir.

Mən Bakı Şəhər İcra Hakimiyyətinin başçısına dərhal göstəriş verdim ki, bu məsələ araşdırılsın, mənə məruzə edilsin və mənə məruzə edildi. Çox böyük pozuntular aşkarlandı, çox böyük pozuntular. Bu qanunsuz əməllərə kimlər əl atıb? Dövlət məmurları və bəzi dırnaqarası sahibkarlar! Onların da siyahısı var. Bu, tarixə qarşı, bizim təbiətimizə qarşı cinayətdir. Bu qayalar Bakının rəmzidir, bu qayalar əsrlər boyu sahilimizin gözəlliyini əks etdirirdi. Bu qayalara insanlar yaxınlaşırdı, orada filmlər çəkilirdi. Kimsə bunu zəbt edir, onları sındırır, özləri üçün villa tikir.

Əfsuslar olsun ki, belə hallar çoxdur. Bu gün bir daha demək istəyirəm ki, bu hallara qarşı çox ciddi mübarizə aparılır. Çünki idarəetmədə çox ciddi islahatlar aparılır, çox böyük təmizləmə işləri aparılır. Bu işlərə rəvac verən və bəzi dövlət məmurlarını, yerli icra orqanlarını bu qanunsuz işlərə təhrik edən insanlar hakimiyyətdən uzaqlaşdırıldı. Hakimiyyət təmizlənir və insanlar da bunu görürlər. Ona görə siz dövlət məmurları kimi bu hallara çox ciddi fikir verməlisiniz. Bunu mən sizə deyirəm və bütün dövlət orqanlarının nümayəndələrinə deyirəm, eyni zamanda, qanunsuz işlərlə məşğul olmaq istəyən insanlara deyirəm: Əl çəkin bundan! Cəzalandırılacaqsınız və cəzalandırılırlar. Biz kiminsə tamahına, kiminsə şəxsi maraqlarına görə ölkəmizin uğurlu inkişafına kölgə sala bilmərik. Ona görə torpaqların qanunsuz zəbt edilməsi prosesi araşdırılmalıdır. Həm rəhbərlik edəcəyiniz rayonlarda, həm bütün ölkə üzrə, Abşeron yarımadasında, sahilboyu ərazilərdə, bütün rayonlarda araşdırılmalıdır və qanunsuz əməllərə son qoyulmalıdır.

> **"Bizim siyasətimiz Azərbaycan xalqının rifah halının yaxşılaşmasına istiqamətləndirilib"**

Azərbaycan ərazi baxımından o qədər də böyük ölkə deyil. Bizim üçün hər qarış torpaq qiymətlidir, dəyərlidir və torpaqdan insanlar istifadə etməlidirlər. Fermerlər, kəndlilər məhsul yetişdirmək üçün istifadə etməlidirlər. Biz ölkəmizin ekoloji sistemini qorumalıyıq və sizə də tövsiyələrimin biri bundan ibarətdir. Görülən və görüləcək bütün işlər elə aparılmalıdır ki, ekologiyaya ziyan dəyməsin. Xüsusilə həm Göygöl, həm Lerik, həm də Masallı çox zəngin təbiəti olan rayonlardır. Ona görə ekoloji tarazlıq, ekoloji normalar qorunmalıdır. Bunu mütləq nəzərə alın.

Əminəm ki, hər bir rayonda, hər bir yerdə müasir idarəetmə qaydaları tətbiq olunarsa, bir çox problemlər aradan qaldırılacaq. Bax, dövlətin siyasəti bundan ibarətdir. Mən hər zaman Azərbaycan dövlətinin siyasətini birmənalı şəkildə ifadə edirdim, bunu ictimaiyyətə təqdim edirdim. Mənim bir çox çıxışlarım ictimaiyyət qarşısında hesabat xarakterli çıxışlardır və eyni zamanda, bütün dövlət məmurlarına, o cümlədən sahibkarlara dediyim sözlər hesab edirəm ki, əsas olmalıdır.

Sahibkarlıq inkişaf edir, mən bunu dəstəkləyirəm və bunun üçün bir çox addımlar atılır. Ancaq burada da bütün qaydalara riayət edilməlidir, xüsusilə həm inşaatda, həm kənd təsərrüfatı sahəsində, turizm sahəsində. Baxmaq lazımdır, yaradılan obyekt nə dərəcədə bu və ya digər bölgənin memarlıq üslubuna cavab verir, nə dərəcədə müasir normalara cavab verir, bunun inşaat zamanı əmsalı normalara uyğundur, yoxsa yox. Əfsuslar olsun ki, vaxtilə Bakı şəhərində inşa edilmiş bir çox hündürmərtəbəli binalar indi heç bir şəhərsalma normalarına uyğun gəlmir. Nə üçün? Çünki qanunsuz işlər görülüb. Rayon icra başçıları qanunsuz icazələr verib və bunun nəticəsində də faktiki olaraq şəhərsalma prinsiplərinə böyük zərbə dəyib. Ona görə indi bunları düzəltmək çox çətindir. Amma biz indi bu mərhələdə imkan verə bilmərik ki, inşaatda şəhərsalma normaları pozulsun. Məsələn, işğaldan azad edilmiş rayonlarda bütün şəhərsalma, ekoloji normalar 100 faiz gözlənilir, özü də dünyanın ən inkişaf etmiş ölkələrinin standartları əsasında. Bax, siz də öz fəaliyyətinizdə bu məsələlərə ciddi fikir verməlisiniz və nəzarət etməlisiniz.

Rəhbərlik edəcəyiniz rayonlarda işlərin daha yaxşı getməsi üçün əlbəttə ki, ictimai nəzarət olmalıdır. Siz ictimai nəzarətdən çəkinməməlisiniz. İctimai nəzarət, ictimaiyyətin fəallığı, mövcud olan problemlərə dövlət orqanlarının diqqətinin cəlb edilməsi sizin işinizə kömək göstərəcək. Ona görə insanlarla bir yerdə olmalısınız, ictimaiyyətlə bir yerdə olmalısınız və biz ancaq bu yolla ölkəmizi inkişaf etdirə bilərik.

Bir daha demək istəyirəm, sizə böyük etimad göstərilir. Mən hesab edirəm ki, son vaxtlar ölkəmizdə gedən çoxşaxəli islahatlar, o cümlədən idarəetmə sahəsində aparılan islahatlar, həmçinin kadr islahatları bütün Azərbaycan ictimaiyyətinə bizim siyasətimizi göstərir, bizim niyyətimizi göstərir.

Azərbaycanın çox böyük perspektivləri var, çox böyük potensialı var, xüsusilə İkinci Qarabağ müharibəsindəki tarixi Zəfərimizdən sonra ki, biz bu ədalətsizliyə də son qoyduq, öz gücümüzlə tarixi ədaləti bərpa etdik. Biz müzəffər xalq kimi yaşayırıq, ləyaqətlə yaşayırıq və ölkəmizdə işlər elə getməlidir ki, heç bir narahatedici problem olmasın, heç bir ədalətsizlik olmasın. Bütün imkanlar var - təbii sərvətlərimiz, coğrafi yerləşməyimiz, beynəlxalq nüfuz, infrastruktur layihələri. İndi hər şey göz qabağındadır. Azərbaycan necə sürətlə inkişaf edir, xüsusilə indiki şəraitdə ki, həm dünyada iqtisadi böhran hökm sürür, həm digər narahatedici məsələlər göz qabağındadır. İndi belə olan halda, hansısa dövlət məmuru əgər öz vəzifə borcunu şərəflə yerinə yetirmirsə, əlbəttə ki, o, cəzalandırılacaq. İmkan verə bilmərik ki, bizim uğurlu inkişafımıza kimsə kölgə salsın, kimsə hansısa yerdə özü üçün rüşvətxorluq yuvası qursun və dövlətimizin əsaslarını sarsıtsın.

> **"Biz bu Qələbəni onlara - şəhidlərimizə, müharibə əlillərinə, müharibə iştirakçılarına borcluyuq"**

Bax, mənim sizə göstərişlərim bundan ibarətdir. Mən sizdən fəal iş gözləyirəm, nəticə gözləyirəm. Əminəm ki, siz bu yüksək etimadı dərk edərək, dediyim kimi işləyəcəksiniz."

Rayonların yeni təyin olunan icra hakimiyyətlərinin başçıları onlara göstərilən böyük etimada görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə etdilər, bu etimadı doğrultmaq üçün tam məsuliyyətlə çalışacaqlarını və dövlətimizin başçısının tapşırıqlarının irəli gələn məsələləri, üzərilərinə düşən vəzifələri layiqincə icra etmək üçün səylə fəaliyyət göstərəcəklərini bildirdilər.

### Rəsmi xronika

Prezident İlham Əliyev Elvin Paşayevin Göygöl Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Elvin Nazim oğlu Paşayev Göygöl Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***

Prezident İlham Əliyev Əkbər Abbasovun Lerik Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Əkbər Bəxtiyar oğlu Abbasov Lerik Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***

Prezident İlham Əliyev Masallı Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Araz Süleyman oğlu Əhmədov Masallı Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***

Prezident İlham Əliyev Şahin Məmmədovun Masallı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Şahin Kərim oğlu Məmmədov Masallı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

# "Heritage" Fondu "Azərbaycanın rəsmi Vaşinqtonun daha çox strateji diqqətinə layiq olmasının səbəbləri" haqqında məqalə dərc edib

**ABŞ-ın nüfuzlu beyin mərkəzlərindən biri olan "Heritage" Fondunun "İqtisadi Azadlıq İndeksi"nin redaktoru, baş tədqiqatçı Entoni Kimin Azərbaycanın ABŞ üçün əhəmiyyətindən bəhs edən məqaləsi dərc olunub. AZƏRTAC xəbər verir ki, qurumun saytında və "The Daily Signal" qəzetində yerləşdirilən məqalədə 2022-ci ildə ABŞ və Azərbaycan arasında diplomatik münasibətlərin 30-cu ildönümünün qeyd olunduğu bildirilir.**

Müəllif yazır ki, Vaşinqtonun xarici siyasət nöqteyi-nəzərindən Azərbaycanın ABŞ üçün strateji əhəmiyyəti danılmazdır. Bakı Xəzər dənizindəki ən böyük liman və Avropa ilə Mərkəzi Asiya arasında daşınan mallar üçün mühüm nəqliyyat qovşağıdır. Dünyada həm Rusiya, həm də İranla həmsərhəd olan yeganə ölkə olan Azərbaycan balanslaşdırılmış siyasət aparır və fəal şəkildə Qərblə münasibətlərini genişləndirməyə çalışır.

Məqalədə qeyd edilir ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra son otuz il ərzində ABŞ-Azərbaycan əlaqələri digər siyasət prioritetləri ilə yanaşı, Avropada enerji təhlükəsizliyinin inkişaf etdirilməsi, transmilli təhdidlərlə mübarizə, ikitərəfli ticarət və investisiyaların artırılması sahəsində hərtərəfli inkişaf edib.




Enerji təhlükəsizliyindən söz açan tədqiqatçı yazır ki, ölkə iqtisadiyyatının əsas hissəsini təşkil edən böyük karbohidrogen ehtiyatları və digər təbii ehtiyatları Azərbaycana alternativ neft və qaz təminatçısı rolunu oynamağa imkan verir. Bununla Azərbaycan Avropanın enerji təhlükəsizliyinə və əlavə olaraq ABŞ-ın təhlükəsizliyinə öz töhfəsini verir.

Müəllif yazır ki, Birləşmiş Ştatlar uzun müddət ərzində Azərbaycanın öz enerji resurslarını inkişaf etdirmək və Qərb bazarlarına ixrac etmək səylərini dəstəkləyib, ABŞ şirkətləri orada dənizdə neftin işlənməsi layihələrində iştirak ediblər. Son bir neçə ildə tamamlanan Azərbaycan Cənub Qaz Dəhlizi Xəzər regionundan olduqca əhəmiyyətli olan enerji resurslarını Avropa bazarına çıxarıb.

Entoni Kim Azərbaycanın alternativlərin enerji mənbəyi kimi genişləndirilməsi və təhlükəsizliyinin təmin edilməsi kontekstində Avropa və Birləşmiş Ştatlar üçün aktuallığı yüksək olan geosiyasi əhəmiyyətə malik ölkə olduğunu vurğulayır: "Azərbaycandan qlobal bazarlara çəkilən Cənub Qaz Dəhlizinin daha çox istifadəsinin region üçün, eləcə də ABŞ üçün böyük faydası var". "Heritage" Fondunun qanunun aliliyi, fiskal sağlamlıq, tənzimləmə səmərəliliyi və bazar açıqlığının mühüm siyasət sahələrini əks etdirən illik "İqtisadi Azadlıq İndeksi"nin nəticələrinə görə, Azərbaycanda nəzərəçarpacaq dərəcədə yüksəliş tendensiyası müşahidə olunur.

Müəllif qeyd edir ki, Vaşinqton iki ölkə arasında qarşılıqlı maraq doğuran məsələlər üzrə səmimi, açıq və ikitərəfli dialoqu genişləndirmək və dərinləşdirməklə Xəzər dənizi regionunda Azərbaycan kimi mühüm və etibarlı tərəfdaşı dəstəkləyə bilər. Məqalənin sonunda ABŞ siyasətçilərinə müraciət edən Entoni Kim yazır ki, bu məqsədlərə nail olmaq üçün Vaşinqton Azərbaycana həmişəkindən daha çox strateji və praktiki diqqət yetirməlidir.

# Altı ayın nəticələri:

## verilən vədlər, gerçəkliyə çevrilən işlər

"Mən artıq qeyd etdim, biz hamımız yadda saxlamalıyıq, çox güman ki, dünya iqtisadiyyatında tənəzzül, yəni, resessiya qaçılmazdır və buna hazır olmaq lazımdır. Resessiya, əlbəttə, əgər baş verərsə, ilk növbədə, neftin qiymətinə mənfi təsir göstərəcək. Ona görə gələn ilin büdcəsində neftin qiyməti düzgün seçilməlidir. Biz bu barədə hələ danışacağıq, vaxta var. Amma biz dünyada gedən prosesləri əlbəttə ki, izləməliyik. Çünki Azərbaycan dünya iqtisadiyyatının bir parçasıdır". Bu fikirləri iyulun 15-də Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə çıxış edərkən söyləyib. "Gələn il görüləcək işlər əminəm ki, ölkəmizi daha da gücləndirəcək. Biz verdiyimiz bütün vədlərə həmişə sadiq olmuşuq, vədlərə əməl etmişik. Azərbaycan xalqına nə vəd vermişiksə, onu yerinə yetirmişik - bütün sahələrdə, o cümlədən iqtisadi və sosial sahədə. Əminəm ki, biz bundan sonra da həmişə öz sözümüzə sadiq olacağıq, istədiyimizə nail olacağıq. Arzularımız da odur ki, ölkəmiz güclənsin, xalqımız daha yaxşı yaşasın", - deyə dövlətimizin başçısı qeyd edib.



İLHAM ƏLİYEV: "Azərbaycan xalqına nə vəd vermişiksə, onu yerinə yetirmişik"

### DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ YENİ HƏDƏFLƏRƏ DOĞRU

İyulun 15-də Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə dövlətimizin son altı ayın xarici və daxili siyasət xətti müzakirə edildi. Son bir ilin mənzərəsini təhlil etsək, bu müddətin ölkəmiz üçün uğurlu olduğunu deyə bilərik. Azərbaycan postmüharibə dövründə bütün çağırışlara hazırlıqlı olduğunu nümayiş etdirir. 2022-ci ilin altı ayının nəticələri və göstəriciləri də bu reallığı təsdiqləyir. Prezident İlham Əliyev istər cari ilin birinci rübünün yekunlarına, istərsə də 6 ayın yekunlarına həsr olunan müşavirədə bir çox mühüm məsələlərə toxunmaqla, çox vacib mesajlar da verdi. Belə ki, bu dövrdə dünyanın bir çox ölkələrinin rəhbərləri ilə mühüm görüşlər keçirilib və zəruri sazişlər imzalanıb, son 1 il 8 ayda Azərbaycan xalqının rifahının yaxşılaşdırılması üçün sosial islahatlar həyata keçirilib. Dünyada baş verən böhrandan daha az təsirlərlə çıxmaq üçün mühüm sosial paketlər təbiq olunub. Prezident İlham Əliyevin müşavirədə qeyd etdiyi əsas nüanslardan biri də bəzi ölkələrdən fərqli olaraq, Azərbaycanın xarici borcunun minimum səviyyədə olmasıdır. Dövlət başçısı çıxışı zamanı bir daha qeyd etdi ki, pandemiyadan və müharibədən yenicə çıxmış bir dövlət olaraq Azərbaycan bütün bərpa işlərini öz hesabına həyata keçirir. Prezident İlham Əliyev Azərbaycanın xarici siyasət sahəsində qazandığı uğurlardan geniş bəhs edərək diqqəti bu məqama yönəltdi ki, iqtisadi müstəqillik siyasi müstəqilliyin təməl daşıdır. Cari ilin ötən dövrünün sosial-iqtisadi göstəriciləri bunu bir daha təsdiq edir ki, bu gün iqtisadiyyatın düzgün əsaslar üzərində qurulması nəticəsində Azərbaycanın dayanıqlı inkişafına geniş imkanlar açır. Belə ki, cari ilin 6 ayının göstəriciləri deyilənlərin təsdiqidir. Ölkəmizdə ötən 6 ayın iqtisadiyyatı 6,2 faiz, qeyri-neft iqtisadiyyatı 9,6 faiz, sənaye sahəsində ümumi sənaye istehsalı 2,1 faiz, qeyri-neft sənaye istehsalı 11,5 faiz artıb, əhalinin gəlirləri təxminən 20 faiz, ixrac 2 dəfədən çox, qeyri-neft ixracı 25 faizdən çox artıb.

### ALTI AYININ YEKUNLARI ÖLKƏMİZİN DİNAMİK İNKİŞAF YOLUNDA OLDUĞUNUN BİR DAHA GÖSTƏRİCİSİDİR

Dünya iqtisadiyyatını ağır sınağa məruz qoyan qlobal proseslərin ölkəmizdən yan keçəcəyini gözləmək, həqiqətən, sadəlövhlük olardı. Məhz buna görə dövlətimizin başçısı xüsusi olaraq qeyd etdi ki, dünyanın kapital bazarları kimi, bir çox suveren fondları da böyük itkilərə məruz qalıb. Bu cür qlobal təhlükələrə baxmayaraq, ölkəmizin ixracatla bağlı inkişaf göstəriciləri xüsusi diqqət çəkir. Prezident İlham Əliyev həmin sahə ilə bağlı bunları qeyd etdi: "Bizim xarici ticarətimiz də böyük dərəcədə artıb-haradasa 70 faizdən çox. İxracımız 2 dəfədən çox artıb. Qeyri-neft ixracımız 25 faizdən çox artıb. Xarici ticarət balansının müsbət saldosu 6 ayda 12,1 milyard dollardır. Bütün bu rəqəmlər hər bir ölkə üçün qürur mənbəyi ola bilər".

İstənilən ölkənin iqtisadi dayanıqlığının və iqtisadi potensialından səmərəli istifadəsinin göstəricilərindən biri xarici borcların həcmi və onların qaytarılması prosesi ilə bağlıdır. Bu sahədəki vəziyyət həmişə tərəfdaşların və beynəlxalq maliyyə institutlarının xüsusi diqqət mərkəzində olur. Elə buna görə də dövlətimizin başçısı çıxışında bu sahədə əldə olunan nailiyyətlərə xüsusi diqqət yetirdi: "Mən bir neçə il bundan əvvəl vəzifə qoymuşdum ki, xarici borcumuzu ümumi daxili məhsulun 10 faizinə endirək. Bu il iyulun 1-də mənə verilən rəqəmlərə görə, xarici borc ümumi daxili məhsulun 10,7 faizini təşkil edir... Xarici borcu ümumi daxili məhsulun 70 faizi olan ölkələr özlərini normal hiss edə bilərlər. Amma bizdə bu, 10 faizdir".

### BU GÖSTƏRİCİLƏR, İLK NÖVBƏDƏ, AZƏRBAYCAN PREZİDENTİNİN QƏTİYYƏTLİ SİYASİ İRADƏSİNİN NƏTİCƏSİDİR

Göründüyü kimi, iqtisadi müstəqilliyimizin dayanıqlığına dəlalət edən bu uğurların arxasında təkcə ölkəmizin resursları və onlardan səmərəli istifadə amili dayanmır. Bu göstəricilər, ilk növbədə, Azərbaycan Prezidentinin qətiyyətli siyasi iradəsinin nəticəsidir. O ali iradənin ki, hədəfində öz vətəndaşının sosial rifah halının daha da yaxşılaşdırılması, beynəlxalq münasibətlərdə isə etibarlı tərəfdaş nüfuzunun qorunması dayanır. Prezident İlham Əliyevin müşavirədəki çıxışı bir daha göstərdi ki, ölkəmiz seçdiyi yola sadiqdir, hər zaman olduğu kimi, xarici siyasətində də beynəlxalq hüquq normalarına və bəşəri dəyərlərə söykənir, bütün tərəfdaşlarla bərabərhüquqlu, qarşılıqlı şəkildə faydalı və etibarlı əməkdaşlıqda maraqlıdır. Sözsüz ki, Azərbaycanın Vətən müharibəsində əldə etdiyi tarixi Zəfərlə bölgədə yaratdığı yeni reallıq da, zaman keçdikcə, dünya gücləri tərəfindən daha çox nəzərə alınır. Belə ki, ölkəmizin 120 dövləti bir araya gətirən Qoşulmama Hərəkatındakı liderliyi bunun əyani sübutudur. Prezident İlham Əliyev çıxışında onu da xüsusi vurğuladı ki, ölkəmiz Qoşulmama Hərəkatı ilə yanaşı, digər mötəbər beynəlxalq təsisatlarla, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, eləcə də Avropa İttifaqı ilə əməkdaşlığın dərinləşməsində maraqlıdır. Prezidentin çıxışının xarici siyasət sahəsi ilə bağlı olan hissəsi bir daha təsdiq etdi ki, Azərbaycan hakimiyyəti populizmdən uzaq olan və yalnız ümummilli maraqlarımıza xidmət edən praqmatik siyasət seçiminə sadiqdir. Dövlətimizin başçısı bir daha bildirdi ki, Azərbaycan region ölkələri ilə yanaşı, dünyanın digər aparıcı dövlətləri ilə də bərabərhüquqlu əməkdaşlığın dərinləşməsinə xüsusi önəm verir. Prezident İlham Əliyev bu sırada Amerika Birləşmiş Ştatları ilə dövlətlərarası münasibətləri xüsusi qeyd edərək belə dedi: "Bu əlaqələrin həm böyük tarixi və gözəl gələcəyi var. Yəni, bir sözlə, əsas güc mərkəzləri ilə, eyni zamanda, əsas beynəlxalq təşkilatlarla, baxın, cəmi bu altı ay ərzində nə qədər böyük işlər görülüb".

### "HƏRBÇİLƏRİN SOSİAL MÜDAFİƏSİ MƏSƏLƏLƏRİ DƏ AZƏRBAYCANDA YÜKSƏK SƏVİYYƏDƏ TƏMİN EDİLİR"

Müşavirədə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin toxunduğu mühüm məsələlərdən biri də hərbçilərin sosial müdafiəsi və müharibədə qəhrəmanlıq göstərmiş hərbçilərin sosial problemlərinin daim diqqət mərkəzində saxlanıldığını, ümumiyyətlə, hərbçilərin sosial müdafiəsi məsələləri ölkəmizdə yüksək səviyyədə təmin edildiyini bildirdi: "Hərbçilərin sosial müdafiəsi məsələləri də Azərbaycanda yüksək səviyyədə təmin edilir. Hərbçilərin həm xidmət şəraiti, həm mənzil şəraiti haqqında bir çox məlumatlar var. Azərbaycanda bu sahədə görülən işlər deyə bilərəm ki, dünyada nadir hallarda təkrarlanır". Dövlətimizin başçısı çıxışı zamanı vurğuladı ki, indi qüsursuz xidmət edən hərbçilərə dövlət tərəfindən mənzillər verilir: "Bizim bütün hərbi şəhərciklərimiz əsaslı şəkildə təmir edilir, onun haradasa 90 faizi yenidən qurulub. O cümlədən azad edilmiş torpaqlarda nə qədər böyük işlər görülüb - hərbi şəhərciklər, bazalar, hərbi təyinatlı yollar, infrastruktur - biz bunu o ağır iqlim şəraitində edirik. Əlbəttə ki, müharibədə qəhrəmanlıq göstərmiş hərbçilərin sosial problemləri daim diqqət mərkəzindədir və müvafiq göstərişlər verilmişdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu müddət ərzində, müharibədən sonrakı dövr ərzində böyük işlər görüb, bunu hamı bilməlidir". Prezident qeyd edib ki, müharibədə əlil olmuş bütün hərbçilər artıq ən müasir protezlərlə təmin olunublar. "Dördüncü nəsil protezlər - o protezlər ki, insan rahat yaşaya bilər, gəzə bilər, hətta futbol oynaya bilər, qaça bilər. Biz bunu edirik. Bu, çox bahalı texnikadır və o texnologiya elədir ki, vaxtaşırı dəyişdirilməlidir. Biz bunu edirik və edəcəyik. Çünki öz sağlamlığını itirmiş hərbçilər dövlət tərəfindən daim qayğı ilə əhatə olunmalıdır. Dövlət bunu edir və yerlərdə məmurlar da bunu heç vaxt unutmamalıdır", - deyə Prezident İlham Əliyev vurğulayıb.

### "NÖVBƏDƏ OLAN BÜTÜN ŞƏHİD AİLƏLƏRİ YAXIN GƏLƏCƏKDƏ EVLƏRLƏ TƏMİN EDİLƏCƏK"

"Müharibədən sonra bir çox şəhid ailələrinə və müharibə əlillərinə dövlət tərəfindən mənzillər verildi və hesab edirəm ki, bu il Bakı şəhərində bu məsələ artıq tam həll olunacaq. Keçən il 3 min mənzil və fərdi ev verilmişdir, bu il 1500 mənzil və ev verilir". Bu barədə Prezident İlham Əliyev bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədəki nitqində bildirib."Bütövlükdə, Birinci və İkinci Qarabağ müharibələrinin şəhid ailələrinə və müharibə əlillərinə 12 min 500 mənzil verilib. Ermənistanda nə qədər verilib? Sıfır! Bir koma da verilməyib, bir daxma da verilməyib. Yəni, əlbəttə, biz Ermənistanla özümüzü heç cür müqayisə etmək istəmirik. Amma bu, reallıqdır. İndi dünyada o qədər müharibələr olub - bizim bölgəmizdə, bizim coğrafiyaya yaxın olan yerlərdə, başqa yerlərdə. Hansı ölkə bunu edir? Mənə desinlər, mən eşitməmişəm. Ona görə etmirik ki, bununla öyünək, ona görə edirik ki, bunu mənəvi borc bilirik, edirik və edəcəyik. Bütün şəhid ailələri, hansılar ki, hələ növbədədir, yaxın gələcəkdə evlərlə təmin ediləcək", - deyə dövlətimizin başçısı vurğulayıb. Reabilitasiya mərkəzləri yaradıldığını və ən müasir texnologiyalarla təchiz edildiyini diqqətə çatdıran Prezident deyib: "Minlərlə xidmət göstərilir, müharibə əlilləri üçün, veteranlar üçün, şəhid ailələri üçün məşğulluq marafonları keçirilir. Ümumiyyətlə, bu kateqoriyadan olan insanları fəal işə cəlb etmək üçün böyük işlər görülür. Bu, bəlkə də unudulur, bəlkə də bunu daha çox göstərmək lazımdır və qiymətləndirmək lazımdır, özü də bizim qarşımızda bu boyda işlər olaola". Bir sözlə, müşavirədə açıqlanan göstəricilər ölkəmizin dinamik inkişaf yolunda olduğunu bir daha təsdiqləyir. Və bütün bu uğurlu göstəricilər bir daha sübut edir ki, sözünə sadiq, sözü imzası qədər dəyərli və keçərli olan Prezident İlham Əliyev vədlərini yerinə yetirir və yetirəcək. Daha güclü Azərbaycan naminə! Dövlətimizin başçısının vurğuladığı kimi, "biz verdiyimiz bütün vədlərə həmişə sadiq olmuşuq, əməl etmişik. Azərbaycan xalqına nə vəd vermişiksə, bütün sahələrdə onu yerinə yetirmişik, o cümlədən iqtisadi və sosial sahədə. Əminəm ki, biz bundan sonra da həmişə öz sözümüzə sadiq olacağıq, istədiyimizə nail olacağıq. Arzularımız da odur ki, ölkəmiz güclənsin, xalqımız daha yaxşı yaşasın!".

**RƏFİQƏ KAMALQIZI**

# Qlobal iqtisadi böhran fonunda

## AZƏRBAYCAN ÜÇÜN NİKBİN PROQNOZLAR




**Dünya iqtisadiyyatının çətin bir duruma sürükləndiyi göz önündədir və qlobal müstəvidə baş verən geosiyası, eləcə də geoiqtisadi proseslər buna əsaslı zəmin yaradır. Xüsusən, Rusiya ilə Ukrayna arasında hələ də davam edən müharibə, Qərbin bu məsələyə laqeyid olmaması, daha dəqiq desək, müdaxiləsi tətbiq edilən sanksiyalar və bir sıra məqamlar prosesi bir qədər də sürətləndirir. Hətta iqtisadi böhran riskinin belə dürmadan artdığı da təkzib edilə bilməz, çünki sözügedən müharibənin əksər dünya dövlətlərinin iqtisadiyyatına təsirsiz ötüşmədiyi günümüzün reallığıdır.**

Artıq qlobal iqtisadi tənəzzül aparıcı ölkələrin iqtisadi göstəricilərində də özünü göstərməyə başlayıb. Məsələn, Amerika Birləşmiş Ştatları kimi nəhəng bir ölkədə sənaye inflyasiyası 25% həddində müşahidə edilib. Həmçinin Avrozonada istehlak qiymətləri indeksinə əsaslanan inflyasiya 8,6% olub. Bütün bu göstəricilər optimal sayılmır və qənaətbəxş də hesab oluna bilməz. Hətta inflasiyanın kəskin şəkildə genişlənməsi belə demək olar ki, bütün düyada müşahidə olunur. İnflyasiyanın genişləşməsində aparıcı mərkəzi bankların pul emissiyasının kəskin şəkildə artırılması da sözsüz ki, böyük rol oynayır. İstehsalın nəqliyyat və logistik mexanizmlərindəki qeyri-tarazlıqlar belə bu mənada xüsusi təsirə malikdir.

Sözsüz ki, dünya iqtisadiyyatında baş verən durğunluq pul kütləsi ilə bağlı deyil, elə məhz buna görə də monetar siyasətin təsirini görmək olmur. ABŞ Federal Ehtiyatlar Sisteminin (FED) uçot dərəcisini artırmasının effektiv olmaması da qeyd olunanları təsdiq edir. Diqqətə çatdıraq ki, ötən ay FED dərəcə 75 baza bəndi artıraraq 1,50-1,75 faiz aralığına çatdırıldı, hansıki bu, 1994-cü ildən bəri ən yüksək artım idi və uçot dərəcəsinin hətta iyul ayında da yenidən artırılacağı gözləniləndir. Uçot dərəcəsinin hələ ilin sonuna qədər artırılacağını, daha dəqiq desək, 3,4 faizə çatdırılacağını da ekspertlər qeyd edirlər, hansıki bu, uçot dərəcəsinin ilin sonuna qədər daha 1,75 baza bəndi artırılacağı anlamına gəlir.



Xüsusilə vurğulamaq yerinə düşərdi ki, 2022-ci il üçün qlobal iqtisadi artım proqnozu 4,1 faizdən 2,9 faizə qədər azaldılıb və burada başda Ukrayna-Rusiya müharibəsi olmaqla, müxtəlif məsələlərin təsiri nəzərə alınıb. Cari il üçün nəzərdə tutulan proqnozlar Avropa İttifaqı üçün belə dəyişib və müvafiq olaraq 4 faizdən 2,8 faizə düşüb. Bütün bu göstəricilər, eləcə də proqnozlar sadalananları təsdiq edir və onu deməyə əsas verir ki, həqiqətən də cari il üçün iqtisadi böhran riski artıq qəbul edilməkdədir.



Bildiyimiz kimi, artıq avro da kəskin şəkildə ucuzlaşmaqdadır və bu günə olan vəziyyətinə görə onun məzənnəsi dollarla bərabər həddədir, hansıki bu, son 23 ildə ilk dəfə müşahidə olunur. Xatırladaq ki, avronun ucuzlaşması məhz Rusiya ilə Ukrayna arasında müharibə başladıqdan sonra daha da sürətlənib və cəmi bircə il ərzində avro düz 18 faiz ucuzlaşıb, hansıki bu rəqəm təkcə həmin valyuta üçün deyil, ümumiyyətlə, böyük göstəricidir. Sözügedən valyutanın bundan sonra yenə də ucuzlaşmayacağına isə zəmanət verilmir, böyük ehtimalla ucuzlaşacağı qənaətində olanlar, əksini düşünənlər çoxluq təşkil edir. Yalnız bu fakt maliyyə bazarının vəziyyəti barədə müəyyən fikirlərin formalaşmasına əsas verir ki, hər bir halda iqtisadi böhran barədə riskləri ortaya qoyur.

Sirr deyil ki, müharibə, eləcə də sanksiyalar fonunda Rusiya da Avropaya qaz təchizatını məhdudlaşdırıb və bu da təsirsiz ötüşə bilməz, heç ötüşməyib də. Beləki, Rusiyanın qaz təchizatını məhdudlaşdırması Avropada ciddi şəkildə həyəcan siqnalı yaradıb, hansıki bunu hiss etməmək mümkün deyil və indi alternativ mənbələrin axtarışı faktı özü reallığı ortaya qoyur. Mövcud reallıqların fonunda mavi yanacağın qiymətinin bahalaşması təəccüblü deyil və bu bahalaşma da öz növbəsində müxtəlif təsirlərlə ortaya çıxır. Bu təsirlər daha çox real sektorda müşahidə olunur və sözün həqiqi mənasında həmin sektorun inkişafına əngəl yaradır, onu birmənalı şəkildə inkişafdan saxlayır. Bir sözlə, bütün dünyada qlobal iqtisadi böhran riskləri artıq ortadadır.

Eyni zamanda COVİD-19 virusunun da təsirləri nəzərə alınmalıdır və unutmaq lazım deyil ki, bu zamana qədər hələ də həmin təsirləri bütün dünya hiss edir. Artıq sözügedən virusa yoluxma hallarının yenə də artması barədə bildirilir və əvvəlki təcrübəyə əsaslansaq deyə bukırik ki, bu da tələbin, eləcə də enerji qiymətlərinin artması ilə nəticələnməlidir. Ümumiyyətlə, bütün bu məsələlər nəticə etibarı ilə bütövlükdə digər məhsullar üzrə qiymətlərin artımına da təsir etməlidir və edir də. Bundan sonra hələ yenə də artımların olacağı barədə də düşünmək yerinə düşərdi, hansıki bunlar riskləri bir qədər də artırır. Enerji təhlükəsizliyi, qida təhlükəsizliyi kimi məsələlər prioritet olaraq qalmaqdadır, çünki hələ də həyəcan təbili çalınır, hələ də bu məsələlərlə əlaqədar qarşılaşılan risklər barədə bəyan edilir. Artıq bir sıra ölkələr ərzaq təhlükəsizliyi problemi ilə üz-üzədir.

Sevindirici haldır ki, ölkəmizdə iqtisadi stabillik qorunub saxlanılıb və bütün dünyada müşahidə olunanların fonunda Azərbaycanda iqtisadi sabitliyin olması xüsusi diqqətə layiq müsbət haldır, hansıki bunu bütün dünya ictimaiyyəti də müşahidə edir. Müşahidə edir ki, Azərbaycanın markoiqtisadi göstəricilərində artım var və özü də bu, qlobal iqtisadi geriləmələrin fonunda baş verir, hansıki bu reallıq rasional iqtisadi idarəetmə mexanizminin mövcudluğu deməkdir.

Doğrudur, proseslər ölkəmizə təsirsiz ötüşə bilməz və burada xarici faktorların təsiri təkzibedilməzdir. Nəzərə almaq lazımdır ki, ölkəmizə idxal olunan məhsullar da var və əgər dünya iqtisadiyyatındakı böhran daha çox ərzaq və enerji sahəsində müşahidə edilirsə, deməli idxal zamanı bunun təsirləri də əvvəlcədən gözlənilən idi. Məsələn, idxal olunan əntəələrin qiymətində olan artımlar necə təsirsiz ola bilər? Əgər Azərbaycan Ukraynadan taxıl idxal edirsə və Rusiya ilə həmin ölkə arasında gedən müharibə fonunda taxılın qiymətində artım müşahidə edilirsə, deməli, ölkəmizə idxal olunan taxılın qiymətində də artım olmalıdır. Burada təəccüblü heç nə yoxdur və tam məntiqi, həm də anlaşılandır.

Yeri gəlmişkən qeyd edək ki, torpaqların işğaldan azad edilməsindən sonra, Qarabağ ərazilərində görülən işlərdən sonra, əkin sahələrinin, xüsusilə taxıl əkini sahələrinin istifadəsindən sonra artıq taxılın idxalı məsələsi də minimuma endirilə bilər. Deməli, torpaqlarımızın işğaldan azad edilməsi, əkin-biçin üçün istifadəsi taxıl idxalından asılılığın azaldılması ilə yanaşı, həm də əlavə dividentlər deməkdir. Həmin dividentlər isə müxtəlif istiqamətlərdə ola bilər. Məsələn, işğaldan azad olunmuş ərazilərimizə xarici investisiyanın yatırılmasını xüsusilə vurğulaya bilərik. Nəzərə almaq lazımdır ki, xarici investisiya ölkənin dayanıqlı inkişafını şərtləndirən başlıca amil hesab olunur və ölkə iqtisadiyyatının dayanıqlığının təminatı kimi qiymətləndirilir. Bir sözlə, dünya iqtisadiyyatında böhran müşahidə edilməsi fonunda Azərbaycanda iqtisadiyyatı dayanıqlığı üçün əsaslı zəmin var və gələcək perspektivlər daha nikbin proqnozlar vəd edir.

***İnam Hacıyev***

# Bakıda Qoşulmama Hərəkatının Gənclər Sammitinin açılışı olub




***Dünən Bakıda Qoşulmama Hərəkatının Gənclər Sammitinin açılış mərasimi keçirilib. Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin hazırkı sədri Orduxan Qəhrəmanzadənin moderatorluğu ilə keçirilən Sammitdə bu təşkilata üzv olan 60-dan çox ölkənin gənc nümayəndələri iştirak ediblər.***

Açılış mərasimində gənclər və idman naziri Fərid Qayıbov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sammit iştirakçılarına ünvanlanmış müraciətini səsləndirib. Sammitdə, həmçinin Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin videohesabatı nümayiş etdirilib.

Tədbirdə BMT Baş Assambleyasının 76-cı sessiyasının prezidenti Abdulla Şahidin Qoşulmama Hərəkatının Gənclər Sammitinin iştirakçılarına ünvanlandığı videomüraciəti təqdim olunub. Abdulla Şahid bildirilib ki, Qoşulmama Hərəkatının Gənclər Sammitinin təşkilində və gənclərlə bağlı məsələlərin həllində Azərbaycan hökumətinin fəaliyyəti təqdirəlayiqdir. O, postpandemiya dövründə dünyanın bərpasında gənclərin fəal iştirakının təmin edilməsinin əhəmiyyətini vurğulayıb. Diqqətə çatdırıb ki, hər bir aktual mövzunun müzakirəsində, qərarvermə prosesində gənclərin iştirakı lazımdır və labüddür. Abdulla Şahid sonda gənclərə səmərəli müzakirələr və fikir mübadiləsi arzulayıb. Sammit müddətində iştirakçılar ötən ilin noyabrında təsis edilmiş Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin beynəlxalq təşkilata çevrilməsi məsələsini müzakirə edəcək və bu xüsusda müvafiq razılıq əldə olunarsa, Şuşa şəhərində Şəbəkənin Təşkilata çevrilməsi, eləcə də yaranacaq Təşkilatın loqosunun və bayrağının təsdiqlənməsi barədə qərar qəbul edilməsi gözlənilir. Tədbir müzakirələrlə davam etdirilib.

# "Bəzi məmurlar Prezidentin növbəti xəbərdarlığından ciddi nəticə çıxarmalıdır"



"Azərbaycanın hər bir bölgəsi inkişaf, tərəqqi dövrünü yaşayır. Ən əsası regionlar arasında sağlam rəqabət gedir. Cənab İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı ilk gündən iqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasını qarşıya mühüm vəzifə kimi qoyaraq regionların malik olduğu potensialdan səmərəli istifadənin vacibliyini bildirdi. Regionların sosil iqtisadi inkişafına dair ilk Dövlət proqramının qəbulu bölgələrin inkişafında yeni mərhələnin əsasını qoydu. Hər bir proqramın uğurlu icrası növbəti sənədlərin təsdiqlənməsinə geniş imkanlar açır. Bu baxımdan deyə bilərik ki, hazırda 4-cü Dövlət proqramının icrası digər sənədlərdən irəli gələn vəzifələrin yerinə yetirilməsinə və yeni prioritetlərin müəyyənləşdirilməsinə əsaslanır. Hər bir Dövlət proqramında ayrı-ayrı bölgələrin inkişafına dair tədbirlər planı və icra mexanizmi öz əksini tapıb. Diqqət çəkən əsas məqam budur ki, dövlət başçısı İlham Əliyev mütəmadi olaraq regionlara səfərlər edir, Dövlət proqramından irəli gələn vəzifələrin icrası ilə yaxından tanış olur, problemləri ictimaiyyətin öz dilindən eşidir və onların icrası istiqamətində mühüm tapşırıqlar verir. Vətəndaş məmnunluğunun artırılmasının prioritet olduğu atılan hər addımda özünü qabarıq şəkildə büruzə verir. Prezident İlham Əliyev ilk gündən bu çağırışı səsləndirdi ki, əgər xalq görülən işlərdən razı olarsa, mən də razı olacam. Göründüyü kimi, insan amili, insanların yüksək rifah şəraitində yaşayışı dövlətin siyasətində əsasdır. Eyni zamanda, Prezident hər bir vətəndaşın yanında olmaqdan məmnunluq hissi keçirir". Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, dövlət başçısı İlham Əliyevin rayonlara yeni təyin edilmiş İcra Hakimiyyəti başçıları ilə görüşlər keçirməsi və onlara tapşırıqlarını verməsi də ölkənin hərtərəfli inkişafında əsas rol oynayan regionların tərəqqisi ilə yanaşı, vətəndaş amilinə verilən yüksək dəyəri nümayiş etdirir: "Ölkə Prezidenti 2013-cü ildə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda bu çağırışı etmişdir ki, 2003-cü ildə "Neft kapitalını insan kapitalına çevirək!" deyəndə elmə, texnologiyalara, təhsilə qoyulan vəsaitdən söhbət getmir. Söhbət ondan gedir ki, Azərbaycan vətəndaşına hər yerdə hörmət olmalıdır. Dövlət qurumları tərəfindən normal rəftar edilməli, təhdid edilməməli, incidilməməlidir: "Belə hallar var?! Var! Kim bunu edir?! Dövlət məmurları! Kim incidə bilər vətəndaşı?! Dövlət məmuru! Mən yenə də deyirəm, bütövlükdə bölgələrdə icra nümayəndələrinin fəaliyyəti müsbətdir, ancaq belə hallar da vardır. Buna yol vermək olmaz. Hər bir dövlət məmuru öz xalqına xidmət etməlidir. Hər bir icra başçısını mən vəzifəyə təyin edərkən, onu qəbul edərkən ona bir neçə əsas istiqaməti göstərirəm: inkişaf, quruculuq, səmərəli iş, təvazökarlıq və insanlara xidmət!"

YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, Prezident İlham Əliyev iyulun 25-də Araz Əhmədovu Masallı Rayon İcra Hakimiyyətinin başçısı, Əkbər Abbasovu Lerik Rayon İcra Hakimiyyətinin başçısı və Elvin Paşayevi Göygöl Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edərkən regionların inkişafına yönələn addımlardan, əldə olunan nəticələrdən, qarşıya qoyulan hədəflərdən, ən əsası rayon rəhbərlərinin üzərinə düşən vəzifənin yerinə yetirilmə səviyyəsindən bəhs edərək bildirmişdir ki, bir neçə keçmiş icra başçısı cinayət məsuliyyətinə cəlb edilmişdir, bəzilərinin hökmü verilmişdir, bəzilərinin işləri məhkəmədədir. Bu, onu göstərir ki, heç kim qanundan üstün ola bilməz: "Mən bütün icra başçılarını vəzifəyə təyin edərkən göstərişlərimdən biri o idi ki, korrupsiyaya, rüşvətxorluğa qarşı biz amansız mübarizə aparmalıyıq və icra başçıları burada nümunə olmalıdırlar. Əfsuslar olsun ki, bəziləri əyri yolla gediblər və bu gün bunun acısını çəkirlər. Bu, hər bir dövlət məmuru üçün dərs olmalıdır."

Vüqar Rəhimzadə dövlət başçısının qeyd olunan görüşdə qarşıya qoyduğu vəzifələrə diqqəti yönəldərək bildirib ki, bunlardan biri şəhid ailələrinə xüsusi diqqət göstərilməsidir: "Dövlətimizin şəhid ailələrinə, qazilərimizə diqqət və qayğısı göz önündədir. Onların sosial məsələlərinin həlli qarşıda duran ən mühüm vəzifə kimi dayanır. Hər zaman bu çağırış səsləndirilir ki, dövlətlə yanaşı, hər bir vətəndaş, dövlət məmuru şəhidə ailələrinə, qazilərə diqqət və qayğı göstərməlidir. Onların qanı, canı bahasına 30 illik işğala son qoyulub, torpaqlarımız öz tarixi sahibinə qayıdıb. Qeyd olunan görüşdə dövlət başçısı İlham Əliyev tarixi Zəfərimizdə dövlətimizn qətiyyətini mövqeyindən bəhs edərək bu fikri xüsusi qeyd etdi ki, azad edilmiş torpaqlarımıza bayrağımızı sancan bizim qəhrəman əsgər və zabitlərimiz olub. Onlar öz canlarını fəda edib, onlar sağlamlığını itirib, onlar heç nəyə baxmadan, qorxmadan ölümə gedərək Vətənimizi işğalçılardan xilas ediblər. Ona görə hər bir dövlət məmurunun, nəinki dövlət məmurunun, hər bir insanın borcudur ki, onlara arxa, dayaq olsun."

"Dövlət başçısının qarşıya qoyduğu əsas vəzifələrdən biri hər bir rayon rəhbərliyinin rayonun inkişafı ilə bağlı təşəbbüs göstərməsi oldu" söyləyən YAP Xətai rayon təşkilatının sədri bildirib ki, dövlət təsdiqlənən Dövlət proqramlarında hər bir rayonun gələcək inkişafını necə görmək istədiyini nəzərdə tutduğu tədbirləri ilə təsdiqləyir: "Rayon rəhbərliyi qarşıya qoyulan vəzifələri, eyni zamanda, özünün təşəbbüslərini sistemli şəkildə icra etməklə bölgənin sürətli inkişafına öz töhfəsini verməlidir. Reallıq budur ki, Azərbaycanın hər bir bölgəsi zəngin potensiala malikdir, onlardan səmərəli istifadə etmək üçün zəruri addımlar atılır. Sözügedən rayonların hər birinin zəngin turizm potensialı hər kəsə məlumdur. Həmçinin son illərdə kənd təsərrüfatının ayrı-ayrı sahələrinin inkişafının prioritetliyini nəzərə alsaq, hər üç rayonda kənd təsərrüfatının inkişafı üçün çox gözəl imkanlar mövcuddur. "Burada da müasir tələblərə uyğun kənd təsərrüfatı yaradılmalıdır" söyləyən dövlət başçısı bildirdi ki, müasir aqrotexniki tədbirlərin görülməsi, tətbiq edilməsi şərtilə heyvandarlıq, bitkiçilik rayonların xüsusiyyətlərinə görə inkişaf etməlidir. Bununla bağlı olan çox ciddi məsələ torpaqlardan səmərəli istifadə edilməsidir. Əfsuslar olsun ki, əvvəlki illərdə bəzi dövlət məmurları və bəzi sahibkarlar tərəfindən böyük torpaq sahələri hasarlanmış, qanunsuz zəbt edilmişdir."

Vüqar Rəhimzadə bildirib ki, dövlət başçısı İlham Əliyev bu əminliyi ifadə etdi ki, hər bir rayonda, hər bir yerdə müasir idarəetmə qaydaları tətbiq olunarsa, bir çox problemlər aradan qaldırılacaq. Dövlətin siyasəti məhz bundan ibarətdir. Ölkə Prezidenti proqram xarakterli hər bir çıxışında görülən işləri və qarşıda dayanan vəzifələri açıqlayır, irəli sürdüyü təşəbbüslərin xalq tərəfindən dəstəklənməsindən məmnunluğunu ifadə edir. Xalqın Prezidentinə inamı, etimadı böyükdür. Bu birlik, həmrəylik fonunda hədəflərə yüksək səviyyədə nail olmaq mümkündür.

YAP Xətai rayon təşkilatının sədri onu da əlavə edib ki, bölgələrdə yaradılan şərait, infrastruktur layihələrinin uğurlu icrası sahibkarlığın inkişafına geniş imkanlar açır: "Dövlətin sahibkarlığın inkişafına diqqət və qayğısı sistemli xarakter daşıyır. Ölkəmizdə sabitliyin, normal biznes mühitinin mövcudluğu investisiya cəlbediciliyinin qorunmasında əsas faktordur. Regionların inkişafını qeyri-neft sektorunun inkişafı kimi dəyərləndirən dövlət başçısı İlham Əliyevin uğurlu və düşünülmüş siyasəti nəticəsində ölkəmizdə böyük sahibkarlar sinfi yaranıb.

Sahibkarlara güzəştli kreditlərin verilməsi, həmçinin müraciətlərində süründürməçilik hallarının baş verməməsi üçün elektron xidmətlərin tətbiqi və sair kimi biri-birindən mühüm addımlar bugünkü inkişafın əsasını təşkil edir. Həmçinin bölgələrimizdə "ASAN xidmət", DOST mərkəzləri fəaliyyət göstərir ki, bunlar hər bir xidmətin yüksək səviyyədə təşkilində əhəmiyyətli rol oynayırlar. Bazar iqtisadiyyatının aparıcı qüvvəsi kimi sahibkarlığın inkişafı bütün dövrlərdə aktualdır. Dövlət başçısı İlham Əliyev bu günlərdə cari ilin 6 ayının yekunlarına həsr olunmuş müşavirədə də sahibkarlığın, qeyri-neft sektorunun inkişafının bundan sonra da prioritet olacağını bildirdi."

Vüqar Rəhimzadə ölkəmizdə geniş vüsət alan islahatlar prosesinin, həmçinin kadr dəyişikliklərinin hədəflərə yüksək səviyyədə nail olmağa böyük stimul verdiyini önə çəkərək bildirib ki, ölkəmizin inkişafı üçün bütün imkanlar mövcuddur. Tarixi Zəfərimizdən sonra Azərbaycanın qarşısında geniş imkanlar açılıb. Dövlət başçısı İlham Əliyev bir daha bu tələbi qarşıya qoydu ki, hansısa dövlət məmuru əgər öz vəzifə borcunu yerinə yetirmirsə, əlbəttə ki, o, cəzalandırılacaq: "İmkan verə bilmərik ki, bizim uğurlu inkişafımıza kimsə kölgə salsın, kimsə hansısa yerdə özü üçün rüşvətxorluq yuvası qursun və dövlətimizin əsaslarını sarsıtsın." YAP Xətai rayon təşkilatının sədri bir daha bu ümumiləşdirməni aparıb ki, idarəçilik sisteminin zamanın tələblərinə uyğun təkmilləşdirilməsi gələcəyə daha böyük inamla addımlamağa, yeni-yeni hədəflərin müəyyənləşdirilməsinə əsas verir.

# Niyə milli filmlərimiz xarici filmlər qədər sevilmir?



Azərbaycanda kino sənəti bir əsrdən artıq dövr ərzində əlamətdar hadisələrlə zəngin özünəməxsus inkişaf yolu keçmiş və xalqımızın mədəni-mənəvi həyatında mühüm rol oynamışdır. Yaranma tarixi XX əsrin ilk onilliklərindəki Azərbaycan kinosu xalq adət-ənənələri və məişətinin dolğun təsvir olunduğu "Neft və milyonlar səltənətində", "Arşın mal alan" kimi ilk bədii filmlərlə, xüsusən, yadda qalmışdır. 1920-ci illərdə Azərbaycan Foto-Kino İdarəsinin təsis edilməsi, birinci dövlət kinofabrikinin açılması, aktyor və rejissor studiyalarının təşkili, sənədli və elmi-kütləvi filmlərin istehsalı milli kino sənətinin formalaşmağa başlamasının bariz nümunəsi sayıla bilər. Sonrakı illərdə cizgi kinosunun əsasının qoyulması, respublikada ilk səsli filmin ekranlara buraxılması və filmlərin Azərbaycan dilində səsləndirilməsi, yeni uğurlu kino əsərlərinin yaradılması Azərbaycan kinosunun təşəkkül tapdığını göstərir. Bu dövrdə Azərbaycan kinostudiyasında çəkilən bir sıra filmlər xarici ölkələrdə də rəğbətlə qarşılanmışdır. 1945-ci ildə ikinci dəfə ekranlaşdırılan "Arşın mal alan" filmi ayrı-ayrı dillərə dublyaj olunaraq, dünyanın müxtəlif guşələrində böyük müvəffəqiyyətlə nümayiş etdirilmişdir.

Kino peşəsi bilavasitə istedadla bağlıdır. Eyni zamanda, bu peşəyə girmək paradoksal şəkildə baş verir desək yanılmarıq. Bəli, belə bir stereotip var ki, kino adamı intellekt sahibidir və müəyyən "görmə qabiliyyəti"nə, liderlik keyfiyyətlərinə malik olmalıdır. Əslində, rejissor hekayələrin memarıdır və prosesi fırlatmaq bacarığı olmadan edə bilməz. Təsadüfi deyil ki, studiyalarda kinomühazirələr keçirilməyə başlayır və kinofaktura kimi məkanlar açılır. Ümumən nəzərdə tutulduqda bütün yaradıcı düşüncələr layiqli bir hekayəyə çevrilə bilməz. Pul üçün işləyəcək hansısa komandalar ola bilər. Ancaq onları bu ideya üçün işlətməyə çalışırlar. Yaradıcılıq prosesinin adamları yalnız pul üçün işləyə bilməzlər. Bir film üçün ideya nədir və onu necə axtarmaq lazımdır peşəkarlıq tələb edir.

"Gənc aktyorlar düşünürlər ki, fəaliyyətə başladılarsa yaxşı gəlir əldə etməlidirlər və ya yüksək qonorar almalıdırlar". Bu sözləri SİA-ya açıqlamasında **Azərbaycan Film fondunun kinoarxiv şöbəsinin müdiri, rejissor, kinoşünas Rəşad Qasımov** deyib.



"Mən onların bu fikri ilə razı deyiləm. İncəsənət elə bir sahədir ki, istər-istəməz qurban tələb edir. Bir film ərsəyə gətirilirsə, onun sınaq çəkilişlərindən bir obraz üçün 30 aktyor yoxlanılır və onlardan biri seçilir. Həmin seçilmiş aktyor filmə görə qonarar alır. Kino sənəti elə sənətdir ki, sərbəst fəaliyyət göstərmək, istedadına güvənmək lazımdır. Daim fəaliyyətdə olması işin yaxşı getməsi üçün vacib məqamlardandır deyə düşünürəm. Maddi sıxıntılar da olur, çünki bu, təkcə bizim ölkədə deyil, bütün dünyada baş verən haldır. Elə filmlər var ki, uğurlu olmur. Nə qədər çox vəsait ayrılsa da, bir az da şans lazımdır. Yerli publika üçün çəkilən filmlər var, beynəlxalq festivallar üçün çəkilən filmlər var. Bütün dünyada kino bir sənətdən çox biznesdir. Çəkilən hər bir film yaxşı gəlir gətirməlidir ki, gələn gəlirə uyğun da növbəti filmlər çəkilsin".



**Respublikanın əməkdar artisti, Azərbaycan Dövlət Gənc Tamaşaçılar teatrının quruluşçu rejissoru Nicat Kazımov** isə qeyd edir ki, keyfiyyətli film çəkmək üçün təsəvvür edəcəyim məbləğ 100 000 və daha yuxarı 5 milyon, 50 milyon civarında ola bilər. Filmin mövzusuna, əks etdirdiyi dövrə, orada istifadə olunan texniki vasitələrə və s. baxdıqda bu rəqəmlər dəyişə bilər. Elə filmlər var ki, orada qrafikadan istifadə olunur.

### Niyə bizim filmlər dünya kinosu ilə müqayisəyə çıxarılanda uğurlu hesab olunmur?

Məncə, burada əsas problem kinorejissorların rejissorluqdan başqa cür anlamaqlarından irəli gəlir. Yəni bunlar diqqəti yalnız kameraya verirlər, işığa verirlər ki, o da operatorun işidir. Məncə, digər əsas problemimiz bizim kinoda rejissor problemidir. Boynumuza almalıyıq ki, əksər rejissorlar aktyorlarla işləməyi bacarmırlar. Halbuki aktyorla iş olmalıdır və ideal ortaq fikir olmalıdır. Ümumiyyətlə, sənətdə mən bunu nə üçün edirəm? Festival, müsabiqə üçün kimi fikirlərdən kənar durmaq lazımdır.

Hazırda dünyada müştərək filmlərin çəkilməsi tendensiyası geniş yayılıb. "Azərbaycanfilm" kinostudiyası da müxtəlif ölkələrin kino şirkətləri ilə birgə layihələrin həyata keçirilməsini diqqətdə saxlayır. Azərbaycan və Türkiyə kinematoqrafçılarının birgə istehsalı olan "Mahmud və Məryəm" (2013) filmi, Rusiya kinematoqrafçıları ilə "Qorxma, mən səninləyəm!" (2013) bədii, alman mütəxəssisləri ilə birlikdə Qarabağ atlarından bəhs edən "Sarılar" (2016) sənədli və s. filmlər ərsəyə gəlib.

**Ssenarist, aktrisa Reyhan Cəfərova** isə xarici film mənim üçün geniş anlayışdır deyə qeyd edib. Bura yapon filmindən tutmuş, Hollivud istehsalına qədər olan filmləri aid etmək olar. Xarici filmlərlə yerli filmlərin müqayisəsinə gəlincə, filmdə vacib olan millilikdir, azərbaycanlı olaraq filmə baxanda özümüzü görməliyik. Məsələn: siz gürcü filmi ilə italyan filmini, fransız filmi ilə iran filmini səhv sala bilməzsiniz. Əgər söhbət inkişafdan gedirsə, dünyaya qapını milliliyə söykənərək açmaq lazımdır və təbii ki, kino təhsili olduqca vacibdir.



Film kütləvi işdir və hər kəsin çiynində öz yükü var. Amma rejissor filmin anasıdır. Doğulacaq övladın mənfi və müsbəti ondan bəhrələnir. Rejissor aktyora da cığır açır. Çünki filmi o görür.

### Bir çox gənclərimiz daha çox xarici və türk seriallara üstünlük verirlər? Bunun səbəbini nədə görürsüz?

Yerli serial bazarı janr baxımından zəngin deyil. Müasir insanlar yenilik, dəyişiklik, dinamika sevir. Bizim serial bazarı "ucuzlu"dur. Aşağı büdcə ilə məhsul istehsal olunur deyə yenilik etmək də çətinləşir. Deməm ki, pul oldu hər şey düzələcək. Bəzən kifayət qədər büdcəsi (yerli bazarla müqayisədə) olan seriallar da zəif alınır. Peşəkarlıq vacibdir. Serialın öz estetikası və üslubu var. Biz hələ yıxıla-yıxıla gəzməyi öyrənirik. Uğurlu seriallar da çəkilir. Hər şeyə pis deyib atmaq da düzgün deyil.

Serial kommersiya məhsuludur. Reytinqə xidmət etməliyik. Bütün dünyada belədir. Bizdə seriala televiziya kanalları vəsait ayırır. Məhsul baxılmalıdır. Yoxsa niyə pul versin ki? O ki qaldı zövqə, çalışırıq. Qulaqları yaxşı söz eşitsin, gözləri gözəllik görsün, qəlbləri fərəhlənsin.

***Havar Şəfiyeva***

## Şəhidlər unudulmur!




**25 İyul 2022-ci il tarixində Ağsu rayonu Çaparlı və Keçdiməz kəndlərində torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlmiş igidlərimizin, Rəhimov Yalçın Elçin oğlu və Qurbanov Qamət Şəmşir oğlunun doğum günü qeyd edildi. Tədbirdə Ağsu rayon İcra Hakimiyyəti başçısı Aparatının rəsmi nümayəndələri, Yeni Azərbaycan Partiyası Ağsu rayon təşkilatının rəsmi nümayəndəsi, partiya fəalları, şəhid ailələri, şəhidin yaxınları və kənd sakinləri iştirak edib. İlk öncə şəhidlərimizin doğulduğu kəndtdə yerləşən məzarları ziyarət olunaraq üzərinə gül dəstələri düzülərək, ruhuna dualar oxunuldu. Tədbir Şəhidlərimizin adına verilən ehsan süfrəsi ilə davam etdirildi. Daha sonra tədbir iştirakçıları Şəhid Rəhimov Yalçın və Şəhid Qurbanov Qamətin ailə üzvlərinə dərin hüznlə başsağlığı veriblər.**





Şəhidlərimizin ailələri dövlət səviyyəsində onlara göstərilən diqqət və qayğıya görə Prezident, Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlığını bildiriblər. Rəhimov Yalçın Elçin oğlu Vətən müharibəsində Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu kimi şərəfli döyüş yolu keçmişdir. Rəhimov Yalçın Vətən müharibəsi başlanan gündən bir çox döyüş əməliyyatlarında iştirak edərək böyük qəhrəmanlıq və şücaət göstərmiş düşmənin xeyli sayda itki verməsinə nail olmuşdur. Rəhimov Yalçın Noyabr ayının 7-də Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Qurbanov Qamət Şəmşir oğlu Vətən müharibəsində Azərbaycan Ordusunun pulemyotçusu kimi hərbi xidmətini yerinə yetirmişdir. Qurbanov Qamət 29 sentyabr tarixində Talış və Suqovuşan istiqmətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

***Allah rəhmət eləsin!***

ANALİZ

# Taxıl dəhlizi: Böhran bitdimi?



## Türkiyədə Ukraynanın taxıl ixracının qarşısının alınması ilə bağlı razılıq əldə olundu, bəs sonra?

**Ötən həftə İstanbulda dörd tərəf - Rusiya, Ukrayna, BMT və Türkiyə taxıl dəhlizinin təhlükəsizliyinə dair saziş imzalayıb. Bu sazişlə Ukraynaya aid üç Qara dəniz limanından dünya bazarına ərzaq məhsulları və taxıl ixracı bərpa olunacaq. Ukrayna 5 aydır limanların blokadadan çıxarılması ilə bağlı danışıqlar aparırdı. Bunun əvəzində Rusiya sanksiyaların yumşaldılması və daha yaxşı şərtlərlə danışıqlar aparmağa çalışır. İstanbul sazişinin tez bir zamanda həyata keçiriləcəyi, Ukraynadan dünya ölkələrinə taxılın göndəriləcəyi anda Rusiyanın Qara dənizdəki hərbi gəmiləri heç bir səbəb gətirmədən Odessa vilayətinin bir sıra yaşayış məntəqələrini və Odessa şəhərindəki limanı Kalibr qanadlı raketləri ilə vurub.**

İmzalanan sazişdə Ukraynanın üç limanı - Odessa, Çernomorsk və Yujnı mülki gəmilərin keçidi üçün blokdan çıxarılması göstərilib. Ümumi nəzarət və koordinasiya üçün yaradılan Birgə Koordinasiya Mərkəzinə Ukrayna, Rusiya, BMT və Türkiyə nümayəndələri daxil olacaq. Gəmilər bütün tərəflərin nümayəndələrindən ibarət yoxlama qrupları tərəfindən yoxlanıldıqdan sonra təsdiq olunmuş qrafikə uyğun olaraq Ukrayna limanlarına gələcək. Müfəttişlik gəmilərdə icazəsiz yüklərin və personalın olub-olmadığını yoxlayacaq. Döyüş gəmiləri, təyyarə və ya pilotsuz təyyarələrin bu dəhlizə müəyyən məsafədən daha yaxın gəlməsi qadağandır. Müqavilə 120 gün müddətində qüvvədə olacaq və tərəflərdən hər hansı biri onu ləğv etmək istədiyini bildirməsə, avtomatik olaraq uzadılacaq.



Türkiyə Rusiya Federasiyası tərəfindən gəmilərin atəşə tutulmasına görə bütün məsuliyyəti öz üzərinə götürüb. Böyük Britaniyanın xarici işlər naziri Liz Truss və ABŞ-ın BMT-dəki nümayəndəsi Linda Tomas-Qrinfild bildiriblər ki, onların ölkələri Rusiyanın Ukrayna limanlarının blokdan çıxarılması ilə bağlı razılaşmanı yerinə yetirməsinə yaxından nəzarət edəcəklər.

Bəli, düz 5 aydır ki, Rusiya-Ukrayna müharibəsi səbəbindən dünya bazarında taxıl qıtlığı hökm sürür. Bəzi ölkələr öz taxıl ehtiyaclarını daxili imkanlar hesabına həll etsə də, elə ölkələr var ki, bu imkandan məhrumdur. Vəziyyətin belə davam edəcəyi halda bu ölkələrdə əsl aclıq hökm sürəcəyi qaçılmazdır. Siyasi dairələrdə isə bu məsələnin çözümü başqa üsullarla həll edilir. Avropa və ABŞ var gücü ilə ərzaq böhranını şişirtməyə və bunun günahını Rusiyanın üzərinə yıxmağa çalışır. Əslində dünyada ərzaq qıtlığının əsl səbəbi Rusiya-Ukrayna müharibəsi deyil. Bura Moskvanın apardığı xüsusi əməliyyatı daxil etməklə bərabər, Qərbin yürütdüyü siyasəti də əlavə etmək olar. Avropa sanksiyalar tətbiq etməklə təkcə özünə deyil, digər ölkələrə də ziyan vurur.

Rusiyanın Ukraynada hərbi xüsusi əməliyyatına başlamasından beş aya yaxın vaxt keçib və dünya isə birdən-birə ərzaq böhranından danışmağa başlayıb. Yaponiyada yerli ərzaq istehsalçıları tərəfindən kəskin qiymət artımları və ev təsərrüfatlarına təsiri barədə danışılır. İstehlakçılar mediada yayılan xəbərlərdən təlaşa düşüblər.

### Bəs reallıq nədir?

2008-ci ildə də "ərzaq böhranı" ilə bağlı hay-küy qalxmışdı. O zaman Hokkaydodakı Toya gölündə G8-in 34-cü sammiti keçirilirdi və mühüm məsələlərdən biri də qlobal miqyasda ərzaq qiymətlərinin artması idi. ABŞ taxıl istehsalı bioetanola (əsasən qarğıdalıdan hazırlanan yanacaq) tələbatın artması səbəbindən qarğıdalıya keçib. Onun da qiymətləri qalxıb. Bununla yanaşı, inkişaf etməkdə olan ölkələrdə taxıla tələbat artıb. Soya və buğdanın qiymətləri də kəskin bahalaşıb. O vaxt sammit G8 idi, yəni Rusiya da orada iştirak edirdi. Onlar deyirlər ki, hazırkı "ərzaq böhranı" onun Ukraynada keçirdiyi hərbi xüsusi əməliyyatdan qaynaqlanır. Amma buğda ixracına görə Rusiya son illər 37,27 milyon tonla dünyada birinci yerdədir, Ukrayna isə yalnız "Avropanın taxıl anbarı" kimi təqdim olunur və 18,06 milyon tonla beşinci yerdədir (FAO-nun 2020-ci il məlumatı). Yəni ixrac həcminə görə Rusiya Ukraynadan iki dəfə böyükdür və bu il dünya bazarına rekord həcmdə taxıl çıxarmağı planlaşdırır.

Eyni zamanda, daha bir çox mühüm amili nəzərə almaq lazımdır. Rusiya 37 milyon ton buğda ixrac edir və ötən il 85,9 milyon ton məhsul əldə edib. Ukrayna isə orta hesabla təxminən 25 milyon ton yığır, 18 milyon ton ixrac edir. Beləliklə, Rusiyada özünü təmin etmə və ərzaq təhlükəsizliyi səviyyəsi müqayisə olunmayacaq dərəcədə yüksəkdir. Rusiyada buğda ABŞ və Kanada ilə müqayisədə 3,5 dəfə, Avstraliyadan isə 9 dəfə çox yığılır. O, istehsalına görə Çin və Hindistandan sonra dünyada üçüncüdür.











Həmçinin dünyada neftin qiymətində artım var. ABŞ-da taxıl qiymətlərindəki dəyişikliyə nəzər saldıqda bu dəyişikliklərə qara qızılın qiymətindən təsir etdiyini görürük. Onun qiyməti nə qədər yüksəkdirsə, etanolun dəyəri bir o qədər yüksəkdir və buna görə də onun istehsalı üçün bioresursların (qarğıdalı və soya paxlası) dəyəri daha yüksəkdir. Xatırladaq ki, WTI (West Texas Intermediate) xam neftinin qiyməti 2008-ci ilin iyulunda pik həddinə çatanda, buğdanın qiyməti də həmin ilin fevralında pik həddə çatmışdı. Lakin bazar yüksəliş trendində olduğundan bütün dünyada buğda əkinləri əhəmiyyətli dərəcədə artdı və ilin sonuna qədər qiymət yarıbayarı düşdü.

Taxıl qiymətləri hava, spekulyasiya, tələb və təklif kimi müxtəlif amillərə görə dəyişir. Üstəlik, son onilliklərdə buğda qiymətlərindəki əsas tendensiya onun davamlı olaraq aşağı düşməsidir. Bu, 1961-2020-ci illər arasında dünya əhalisinin 2,5 dəfə, buğda və düyü istehsalının isə 3,5 dəfə artması ilə əlaqədardır. Buğdanın real qiymətinə nəzər salsanız (spekulyativ qiymət dalğalanmaları nəzərə alınmasa), yüksək hesab olunsa da, 1970-ci illərdən də aşağıdır.

Əhalinin xərclərinin böyük hissəsinin qidaya yönəldiyi Yaxın Şərq və Afrika ölkələri kimi inkişaf etməkdə olan ölkələr üçün ərzaq böhranı təhlükəsi ciddidir. Bununla belə, inkişaf etməkdə olan və inkişaf etmiş ölkələr, o cümlədən Yaponiya arasında vəziyyət çox fərqlidir. Yapon istehlakçılarının idxal olunan kənd təsərrüfatı və dəniz məhsulları üçün ödənilən pulun məbləği ərzaq xərclərinin cəmi 2%-ni təşkil edir. Buğdaya gəlincə, o, ümumilikdə həmin rəqəmin cəmi 0,2%-ni təşkil edir.

İstehlakçıların narahatlığına səbəb olan digər məsələ isə "embarqo" sözüdür. Bu ilin may ayında dünyanın hər yerində yüksək təşvişlə bildirilmişdi ki, dünyanın ikinci ən böyük buğda istehsalçısı olan Hindistan (2020-ci ildə 107 milyon ton, Çin isə 134 milyon ton məhsul yığıb) taxıl ixracına "embarqo" qoyub. Lakin Hindistan taxıl ixracı adi illərdə cəmi 930.000 ton təşkil edib, məhsuldarlıq isə yüz milyon tondan çox olub. Hindistanda taxılın mütləq hissəsi yalnız daxili istehlak üçün nəzərdə tutulub, ona görə də bu embarqo ölkəni heç bir xüsusi nəticələrlə təhdid etmir. Hindistanın onu təqdim etməyi seçməsinin səbəbləri əsasən daxili siyasidir.

Özünü ərzaqla təmin etmək səviyyəsi aşağı olan Yaponiya üçün bəzi ərzaqların, ilk növbədə, ABŞ kimi ixracatçı ölkələrdən taxılın ixracına "embarqo" qoyulması az qala ölüm-dirim məsələsi kimi görünür. Ancaq burada vurğulamaq lazımdır ki, normal şəraitdə belə istehsalçı ölkələr tərəfindən belə embarqo demək olar ki, mümkün deyil.

## 2022 meqa böhranını necə idarə etmək olar?

G7 liderlərinin, NATO üzvlərinin və G20-nin xarici işlər nazirlərinin son görüşlərində hamıya aydın oldu ki, dünya onilliklər ərzində görmədiyimiz fövqəladə hallarla üz-üzədir. Beynəlxalq ziddiyyətlər ərzaq və enerji problemləri, valyuta devalvasiyası, yaxınlaşan borc böhranı, davam edən COVID-19 pandemiyası, iqlim dəyişikliyinin artan təsirləri və silahlı münaqişələr fonunda kəskin şəkildə artıb. Bu il İndoneziyanın sədrliyi altında olan G20 əvvəllər maliyyə və iqtisadi problemlərin həlli üçün bir forum rolunu oynasa da, indi son dərəcə təhlükəli və incə mövqeyə düşüb. Bu qrup ölkələrin liderlərinin noyabrın ortalarına planlaşdırılan sammiti kritik xarakter daşıyacaq, lakin bugünkü bir-biri ilə əlaqəli böhranlara cavab vermək üçün noyabrı gözləmək olmaz. G20 ölkələri noyabr sammitindən əvvəl işə başlamaq üçün virtual (onlayn) prosesə başlamalıdır.

Ümumdünya Ərzaq Proqramının (WFP) məlumatına görə, bu gün 800 milyondan çox insan xroniki qida çatışmazlığından əziyyət çəkir, 323 milyonu isə aclıq təhlükəsi ilə üzləşir. Enerji qiymətləri kəskin şəkildə artıb və COVID-19 peyvənd olunmayan ölkələrdə artmaqdadır. Bundan əlavə, aşağı gəlirli ölkələrin təxminən 60%-i borc problemi ilə üzləşib, eyni zamanda bütün dünyada insanlar quraqlıq, daşqın, meşə yanğınları və iqlim dəyişikliyinin digər nəticələrindən əziyyət çəkir. Aprel ayında BMT-nin Baş Katibi Antonio Quterreş xəbərdarlıq etmişdi ki, böhranlar səbəbindən bəşəriyyətin beşdə birindən çoxu olan 1,7 milyarda qədər insan əvvəllər heç vaxt görülməmiş miqyasda onilliklər boyunca yoxsulluq, səfalət və aclığa sürüklənə bilər. Vəziyyət çox təhlükəlidir, lakin biz gücsüz deyilik və onu dəyişdirməyə qadirik. Artıq borc, enerji və ərzaq problemlərinə cavab olaraq bir sıra çoxtərəfli təşəbbüslər irəli sürülüb. Lakin bu səylər yalnız koordinasiyalı və hərtərəfli olduqda səmərəli olacaqdır. Problemlərimiz bir-biri ilə çox bağlıdır ki, onları ayrı-ayrılıqda həll etmək mümkün deyil.

Dərhal prioritet ərzaq və enerji bazarlarında ədalətli qiymətlərin və təchizat zəncirlərinin təmin edilməsidir. Bu il ÜƏP-nin maliyyə çatışmazlığını ödəmək üçün ən azı 10 milyard dollar lazımdır. Bu gün beynəlxalq təşkilatlar və bir çox hökumətlər ərzaq böhranına Qida Təhlükəsizliyi üzrə Qlobal Alyans kimi təşəbbüslərlə cavab verirlər. Bu alyans humanitar maliyyələşdirməni və davamlı qida sistemlərinə sərmayəni koordinasiya etmək üçün bu ilin yazında yaradılıb. 80-dən çox ölkə ABŞ-ın təklif etdiyi Qlobal Qida Təhlükəsizliyi Yol Xəritəsi: Fəaliyyətə Çağırış layihəsini dəstəkləyib. Bundan əlavə, ərzaq təhlükəsizliyi böhranı mövzusunda Aralıq dənizi Nazirlər Dialoqu və Qlobal Ərzaq Təhlükəsizliyi üzrə Birləşən Nazirlər Konfransı kimi mühüm regional yönümlü sammitlər keçirilib.

Bununla belə, açıq xarici ticarətin ərzaq qıtlığının aradan qaldırılması üçün mühüm əhəmiyyət kəsb etdiyi hamıya məlum olsa da, 20-dən çox ölkə ərzaq məhsullarının ixracına məhdudiyyətlər (ixracın lisenziyalaşdırılması, vergi dəyişiklikləri və birbaşa qadağalar şəklində) tətbiq etmişdir. Ümumdünya Ticarət Təşkilatına üzv ölkələr bu yaxınlarda ÜƏP tərəfindən həyata keçirilən humanitar alışları ixrac məhdudiyyətlərindən azad etməyə razılaşsalar da, bu kifayət deyil. Qlobal ərzaq bazarının həm qısa, həm də uzunmüddətli perspektivdə necə işlədiyi, həm də ərzaq təchizatı və ehtiyatları ilə bağlı biliklərimizdən tam istifadə etməliyik. Bu məqsədlə taxıl ehtiyatına malik böyük ölkələr onları beynəlxalq bazarlara göndərməlidir ki, qiymət artımını daha cilovlasın. Bundan əlavə, hökumətlər şəffaflığı artırmaq, monitorinqi təkmilləşdirmək (fyuçers bazarları da daxil olmaqla) və spekulyasiyanın qarşısını almaq üçün Kənd Təsərrüfatı Bazarı Məlumat Sistemini (AMIS) gücləndirməlidir ki, daha çox ölkə kənd təsərrüfatı idxalının şaxələndirilməsi yolu ilə özünü təmin edə bilsin, həmçinin onların ərzaq istehsalının davamlılığını artırsın.

Bəli, dünyanın sakit, qayğısız göründüyünü demək üçün heç bir şərt yoxdur. Dünya çalxalanır, hər düşünülməmiş addım büdrəməyə, çaxnaşmaya, təlatümə səbəb olur. Dayanıqlı olmayan ərzaq bazarı hərbi-siyasi hadisələrdən də döngəsini pozur, insanları aclıqla baş-başa qoyur. Dünya ölkələri getdikcə daxili bazarı təmin etmək vərədə baş sındırır, gücünü bu istiqamətə sərf edir. Çünki, daxili problemləri həll etmədən xarici siyasətdə heç bir uğur əldə etmək mümkün deyil. Bu, ərzaq təhlükəsizliyi məsələlərinə də aiddir...

**V.VƏLİYEV**

# Azərbaycan Bolqarıstan strateji tərəfdaşlığından gözləntilər

**Dünya dövlətləri ilə diplomatik münasibətlərin qurulmasına önəm verən Azərbaycan bir çox ölkələrlə yanaşı, Bolqarıstanla da qarşılıqlı etimada əsaslanan dostluq və əməkdaşlığı strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Azərbaycan-Bolqarıstan əlaqələrinin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlər əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyət kəsb edir.**



Bu günlərdə, iyulun 21-də Bolqarıstan Respublikasının Baş naziri Kiril Petkovun Azərbaycana səfəri və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşü bu əlaqələrin davamlı olduğunu göstərir. "Bolqarıstanla Azərbaycan arasında strateji tərəfdaşlıq əməkdaşlığımızın inkişaf etdirilməsi üçün həqiqətən yaxşı əsasdır"- deyə bildirən Cənab Prezident bir neçə il əvvəl Strateji Tərəfdaşlıq barədə Bəyannamənin imzalanmasını diqqətə çəkmişdir: "Hesab edirəm ki, bu sənədi iqtisadi, sənayenin inkişafı, ticarət, enerji, daşımalar, turizm, yüksək texnologiyalar və digər sahələrdə əməkdaşlığımızın olduqca praktiki nəticələrinə çevirmək vaxtı artıq yetişib". Cənab Prezident eyni zamanda, coğrafi yerləşməni, Avropa və Azərbaycanın dəmir yolu sistemini birləşdirmək üçün qonşularımızla həyata keçirdiyimiz layihələri, Azərbaycandan keçən yüklərin artan həcmini nəzərə alsaq, daşımalar sahəsində böyük potensial mövcud olduğunu da bildirib: "Yalnız bu ilin beş ayı ərzində Azərbaycandan tranzit 30 faizdən çox artmışdır. Hesab edirik ki, bu, yalnız başlanğıcdır, çünki burada potensial var".

Əlbəttə ki, Strateji Tərəfdaşlıq sənədinin reallığa çevrilməsi müxtəlif sahələrin inkişafına öz təsirini göstərəcəkdir. Texnologiya, logistika, Avropaya ixrac, enerji daşıyıcılarının paylanması kimi sahələrdə bir çox işlər reallaşa bilər.

### İKİ DÖVLƏT ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ VƏ MÜQAVİLƏLƏR MÜNASİBƏTLƏRİN TƏMƏLİNİ MÖHKƏMLƏTDİ

Xatırladaq ki, iki ölkə arasında diplomatik əlaqələr 1992-ci ilin iyun ayının 5-də qurulub. Ötən 30 il müddətində qarşılıqlı etimada əsaslanan əlaqələr inkişaf edib. 1999-cu ildə dekabr ayında Bolqarıstanın Azərbaycanda səfirliyi fəaliyyətə başlayıb. İki ölkə arasında əməkdaşlıq münasibətləri Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1995-ci il iyunun 29-30-da Bolqarıstan Prezidenti Jelyu Jelyevin dəvəti ilə həmin ölkəyə rəsmi səfərindən sonra daha da genişlənib. Heydər Əliyev və Jelyu Jelyev bir çox sahələrdə əlaqələrin yaradılmasını nəzərdə tutan dostluq və əməkdaşlıq haqqında müqavilə imzalayıblar. Ümumilikdə isə həmin səfər zamanı iki dövlət arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında, iki dövlətin müvafiq əraziləri arasında və hədlərindən kənarda hava əlaqəsi haqqında, cinayət işləri üzrə hüquqi yardım haqqında, dostluq münasibətləri və əməkdaşlıq haqqında və digər saziş və müqavilələr imzalanıb.

1998-ci il 07-08 sentyabr tarixlərində Bolqarıstan Respublikasının Prezidenti P.Stoyanovun Bakıda keçirilmiş Tarixi İpək Yolunun bərpası üzrə beynəlxalq konfransda iştirak etmək üçün Azərbaycan Respublikasına işgüzar səfər etmişdir. 2-3 dekabr 1999-cu ildə Bolqarıstan prezidenti Petar Stoyanov Azərbaycana rəsmi səfər etmişdir. 28 may 1999-cu ildə iki ölkə arasında iqtisadi-ictimai və elmi texniki komissiyanın yaradılması haqqında sərəncam imzalamışdır.

### ŞƏKİ VƏ QALEROVO ARASINDA QARDAŞLAŞMIŞ ŞƏHƏR

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev 7-8 oktyabr 2004-cü ildə Bolqarıstanın prezidenti Q.Pirvanov və onun başçılıq etdiyi nümayəndə heyətini ölkəmizə dəvət etmişdir. Görüş zamanı ikitərəfli və siyasi əlaqələr NATO, Aİ-yə dair məsələlər, ticari-iqtisadi komisiya və elmi-texniki komissiyanın fəaliyyəti barədə məsələlər, beynəlxalq terrorizmə qarşı birgə əməkdaşlıq, parlamentlərarası əməkdaşlığa dair məsələlər müzakirə olunmuşdur. Şəki və Qalerovo arasında qardaşlaşmış şəhər nümayəndiliyinin yaradılması haqqında birgə bəyannamə, Azərbaycan teleqraf agentliyi və Bolqarıstan teleqraf agentliyi arasında saziş, Azərbaycan Respublikası hökuməti və Bolqarıstan hökuməti arasında səhiyyə və tibb elmi sahəsində saziş, investisiyanın təşviqi və qarşılıqlı qorunması haqqında saziş və s. haqqında saziş imzalanmışdır.

2004-cü ildə Azərbaycan Prezidenti İlham Əliyev Bolqarıstanda Azərbaycan səfirliyinin açılması haqqında sərəncam imzalamışdır.

2005-ci il 23 sentyabr tarixində Sofiya şəhərində Azərbaycan Respublikasının Prezidenti və Bolqarıstan Respublikasının Prezidenti Birgə Bəyannamə imzalamışdılar. Eləcə də Azərbaycan ilə Bolqarıstan arasında viza rejiminin sadələşdirilməsi haqqında haqqında Saziş imzalanmışdır. Daha sonra hökumətlər arasında Avropa və Avro-Atlantik inteqrasiyası üzrə Əməkdaşlıq haqqında Memorandum imzalanıb.

### İKİTƏRƏFLİ ƏMƏKDAŞLIQ ÜÇÜN PERSPEKTİVLƏR

2009-cu il 13 noyabr tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasına işgüzar səfəri, 2010-cu il 30 iyun-01 iyul tarixlərində Bolqarıstan Respublikasının Prezidenti G.Pırvanovun Azərbaycan Respublikasına işgüzar səfəri və s. bu münasibətlərin davamlılığını təmin etmiş oldu. 2014-cü il 19-20 sentyabr tarixlərində "Cənub Qaz Dəhlizi"nin təməlqoyma mərasimində iştirak etmək üçün Bolqarıstan Respublikasının prezidenti R.Plevnelievin Azərbaycan Respublikasına işgüzar səfəri etmişdir.

İki ölkə arasında energetika sahəsində əməkdaşlıq strateji səviyyəyə çatmışdır. Bolqarıstan Cənub Qaz Dəhlizinin üzvüdür. Cənub Qaz Dəhlizinin malyyə tutumu 40 milyard dollara bərabərdir və bu layihə 7 ölkəni birləşdirir. "Şahdəniz" yatağından qaz artıq Avropa ölkələrinə çatdırılır. Bolqarıstana ildə 1 milyard kubmetr həcmində qazın təchizatı nəzərdə tutulub.

Nəqliyyat sahəsinin inkişafı hər iki ölkə üçün prioritet təşkil edir. Bu mənada Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı hər iki ölkə üçün böyük tarixi əhəmiyyət daşıyır. Bu layihənin həyata keçirilməsi Bolqarıstanın Azərbaycan tərəfdən Avropa İttifaqı bazarın giriş kimi, Azərbaycanın isə Bolqarıstan üçün Mərkəzi Asiya regionuna çıxış imkanı kimi rolunu daha da artırmışdır. 2017-ci ilin may ayında Bolqarıstanın paytaxtı Sofiya şəhərində Azərbaycan və Bolqarıstan arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyinə həsr olunmuş "Bolqarıstan - Azərbaycan: 25 illik diplomatik, ikitərəfli əməkdaşlıq və çoxtərəfli əməkdaşlıq üçün perspektivlər" mövzusunda konfrans keçirilmişdir.

Ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsində, bu əlaqələrin yeni mərhələyə qədəm qoymasında, strateji əməkdaşlıq səviyyəsinə çatdırılmasında və daha da inkişaf etdirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci ilin mart ayında Bolqarıstan Respublikasına rəsmi səfəri böyük rol oynamışdır. Prezident İlham Əliyevin Bolqarıstana rəsmi səfəri çərçivəsində ölkələrimiz arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanmışdır. Bu vaxta kimi iki ölkə arasında çoxlu sayda sənəd imzalanmış, bu sənədlər qarşılıqlı əməkdaşlığın inkişafı üçün möhkəm hüquqi baza yaratmışdır.

Onu da qeyd edək ki, 2016-cı ildə Heydər Əliyev Fondunun dəstəyi ilə Bolqarıstanın Veliko-Tırnovo inzibati ərazisində yerləşən "Trapezitsa" muzey-qoruğu bərpa edilmişdir. Eyni zamanda fond tərəfindən 158 metrlik Cənub Divarının, 880 metrlik turist xiyabanının, Milli İrs Mərkəzinin və 3 orta əsr kilsəsinin bərpasına da maddi dəstək göstərilmişdir.

Bu gün Azərbaycan ilə Bolqarıstan arasında münasibətlər yüksək səviyyədədir. Ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlıq edirlər. Bolqarıstan Respublikasının Baş naziri Kiril Petkovun Azərbaycana səfəri və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşü dövlətlərarası münasibətlərin inkişafında yeni mərhələdir.

***Zümrüd BAYRAMOVA***

# Rusiyanın Azərbaycanın xarici ticarət dövriyyəsində rolu nədən ibarətdir?

İQTİSADÇI AÇIQLADI



"Rusiyanın Azərbaycanın iqtisadi həyatında kı rolu kifayət qədər böyükdür. O cümlədən də xarici ticarət dövriyyəsində də Rusiyanın xüsusi çəkisi digər ölkələrlə müqayisədə ilk üçlükdə yer alır". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Eldəniz Əmirov deyib.



Onun sözlərinə görə, biz bunu həm idxalda, həm də ixracda görə bilirik: "Xüsusilə idxalda Rusiya birinci yerdə gəlir. Uzun illərdir ki, bu tendensiya təkrarlanır. Yəni Rusiya idxalı Azərbaycanda hegemon mövqeyə malikdir. İxracda isə üçüncü yerdədir. Bu da artıq Rusiyanın Azərbaycanın ticarət dövriyyəsində hansı yerdə olduğunu göstərir. Təxminən son 5-6 ildir ki, Azərbaycan ilə Rusiya arasında olan ticarət dövriyyəsi təxminən 3 milyard dollar civarında dəyişir. Pandemiya dövründə aldığımız hər 100 dollarlıq ticarət dövriyyəsinin təxminən 33 dolları ixracımız, 66 dolları isə idxalımız idi. Hazırda Azərbaycanın qeyri-neft və kənd təsərrüfatı ixracı üzrə ixrac məhsullarına başçılıq edən pomidordur. Pomidor ixracının kəskin şəkildə artması məhz Rusiya hesabınadır. Düşünürəm ki, Azərbaycan mütləq şəkildə alternativ bazarlara çıxmağa çalışmalıdır. Buna görə də ilk növbədə məhsulun rentabelliyini və keyfiyyət göstəricilərini artırmalıdır".

***Arzu Qurbanlı***

# Dövlət başçısının ərzaqlıq buğda ilə bağlı Fərmanının icrasına başlanıldı

Azərbaycan Respublikası Prezidentinin "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Fərmanının icrasına başlanılıb. Bununla bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 433s № li Sərəncamına dair izahda bildirilir: "Məlum olduğu kimi, Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi, o cümlədən əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti tərəfindən 2022-ci il 19 iyul tarixində "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Fərman imzalanmışdır.



Qeyd olunan Fərmanın icrası çərçivəsində Nazirlər Kabineti tərəfindən qəbul edilmiş Sərəncama uyğun olaraq, Kənd Təsərrüfatı Nazirliyi iki ay müddətində Dövlət Ehtiyatları Agentliyi, İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi və digər aidiyyəti dövlət orqanları ilə razılaşdırmaqla taxıl haqqında qanunvericiliyin təkmilləşdirilməsi, İqtisadiyyat, Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi və digər aidiyyəti dövlət orqanları ilə razılaşdırmaqla isə ərzaqlıq buğda istehsalçılarına müasir təsərrüfatların yaradılması və müasir suvarma sistemlərinin alınması üçün güzəştli şərtlərlə verilən kredit mexanizminin təkmilləşdirilməsi və dövlət zəmanətinin tətbiqi ilə bağlı təkliflər hazırlayaraq Nazirlər Kabinetinə təqdim edəcəkdir.

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən tədbirlərin icrası nəticələrinin təhlilinə dair hesabatın hər il yanvarın 20-dək Nazirlər Kabinetinə təqdim edilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi və Maliyyə Nazirliyi ilə razılaşdırmaqla ərzaqlıq buğdanın istehsal xərclərini (maya dəyərini) və istehsalçının mümkün qazancını nəzərə almaqla, ərzaqlıq buğdanın dövlət tədarük qiyməti ilə bağlı təkliflərini cari il üzrə iyulun 28-dək, növbəti illər üçün isə hər il iyunun 10-dək Nazirlər Kabinetinə təqdim edəcəkdir".

BAXIŞ BUCAĞI

# Güzgü çoxdur, baxan yoxdur...



**Bəli, "düzü düz, əyrini əyri" tövsiyəsi zamanında güzgü harada idi, tək-tük olardı, o da zadəganların evində. O zaman biz özümüz özümüzün güzgüsü idik. Baxırdıq, görürdük, həm də düzü düz, əyrini əyri görürdük. Həyata baxışımız da bu cür idi, kiminə xoş gəlməsinə, kiminə gəlməməsinə baxmayaraq. İndi isə güzgüdən çox güzgü var, lakin baxan yoxdur. Çünki o güzgülər artıq bizi göstərmir. O güzgülərdə mentalitetimizdən, adət-ənənələrimizdən, nitq mədəniyyətimizdən, özümüzə məxsus geyimlərimizdən və davranışlarımızdan əsər-əlamət qalmayıb.**

O güzgüyə baxanda ki, özünü görməyəcəksən, niyə vaxt sərf edəsən ki?.. Qəribədir, deyilmi? Baxasan güzgüyə, özünü görməyəsən. Görəsən ki, oradakı sən deyilsən, avropalıdır. O güzgüdə sənin dilinə hörmətsizlik əlaməti olaraq başqa dillərdən də istifadə edirlər. Görəsən ki, orada axı sənin geyimlərindən əsər-əlamət də yoxdur, buradakılar yarıçılpaq köynəklərdə, ya qarşıdan, ya arxadan açıq paltarlarda, kəsiyi haradan hara ətəklərdədirlər. Görəsən ki, burada ailənlə birlikdə baxa biləcəklərin çox az saydadır. Burada qonaqla davranış da başqadır, onunla söhbət də. Burada özünü, yaxın-tanışları reklam yaman dəbdədir. Bu güzgü dayanmadan-durmadan cinayətləri, yerliyersiz narkomaniyanı, intiharları göstərir.

Əyləncəli verilişlərdə nələr, nələr baş verir. Bütün bunların fonunda ha axtarasan, özünü görə bilməyəsən, deyəsən ki, yaxşısı budur bu güzgüyə heç baxmayım. Hansı ki, güzgülər ondan yanadır ki, hər gün baxıb özünü görəsən və özündə qalasan.

Hə, yəqin bildiniz güzgü deyəndə nəyi nəzərdə tuturuq. Əlbəttə, aydındır, lap gün kimi, televiziya kanallarıdır güzgülərimiz. İndi güzgü çoxdur, hamının evində hətta bir neçəsi var. Lakin baxan varmı? Var, amma çox az. Həm də çox az telekanallara. Bu güzgülərdən hey danışırıq. Niyə yaxşı əks etdirmir, niyə özümüzü yaxşı görmürük, nə üçün keyfiyyəti gündən-günə aşağı düşür, deyirik. Ötən həftə Mətbuat bayramı ərəfəsində istədik ki, bu güzgülərin keyfiyyətindən bir də söhbət açaq, dedik, yaxşı deyil, bayramdır, qalsın gələn həftəyə. Sözümüz də sözdür. İndi bir də söhbət açaq bu güzgülərdən, bəlkə bir köməkliyi olar. Özümüzü olduğumuz kimi görə bilərik. Axı buna böyük ehtiyacımız var.

Düzü, hər dəfə bu mövzuda söhbət düşəndə hamı özünü haqlı hesab edir. Mən düzü düz, əyrini əyri göstərirəm, yəqin tamaşaçıda zövq yoxdur mənasında cavab alırıq. Hamı özünü haqlı hesab edir. Hansı telekanal haqqında bir tənqidçi, jurnalist, sıravi vətəndaş tənqid söyləyir, düşünürlər ki bəs onların pisini deyirlər. Əksinə, biz bizim olan yaxşıya niyə pis deməliyik ki?..

## Yaxşıya kim pis deyər?..

Belə deyək, tutaq ki, ölkəmizdəki televiziya kanallarının hər biri yüksək səviyyədə verilişlər yayımlayır (inşallah). Televizorun idarəetmə pultunu əlinə alıb çevirdikcə hansı kanalda qalacağına tərəddüd edirsən: İlahi, bunların hansına baxasan, nə gözəl verilişlər gedir. Belə olan halda kim öz yaxşısına pis deyər? Bu barədə heç düşünmüşük? Düşünmüşük ki, telekanallarda bütün sahələrdən yaxşı verilişlər hazırlanırsa, bütün təbəqədən olan insanların zövqünü oxşayırsa, hər kəs istədiyi verilişə yüksək keyfiyyətdə baxa bilirsə, bu insanlar nədən giley-güzar etsinlər?

İndi ki, söhbət düzü düz, əyrini əyri görməkdən, deməkdən gedir, etiraf edək ki, 2-3 telekanal var ki, tək onlara baxanda özümüzü görə bilirik. Lakin məsələ tək özümüzü görmək deyil, həm də müxtəlif zövqlərin oxşanmasını görməkdir. Ümid edirik ki, həmin telekanallarda yaxın gələcəkdə ürəyimiz istəyənləri də görə biləcəyik.

Onu da etiraf edək ki, ailələr var ki, həmin 2-3 kanaldan başqa digər kanalları öz televizorundan silib. Silməyənlər də var, lakin baxmırlar. Nə üçün baxmırlar, çünki zövqlərini oxşamır, milli-mənəvi dəyərlərimizdən uzaqdırlar. Həmin televiziyalarda verilişlər heç də ürəkaçan səviyyədə deyil. Əsasən, şou proqramları hesabına "öz yaşayışını quran" belə kanalların verilişlərində yalnız müğənniləri görmək olur. Axı nə qədər müğənni, nə qədər eyni mahnılar. Nə qədər hər dəfə verilən suallar, alınan cavablar. Tamaşaçı bundan bezir. Sual olunur, nə üçün verilişlərə müğənnilər bütün sahələrin insanlarından çox çağırılır? Bu sualın cavabını bilən varmı? Niyə bizim televiziya məkanında komediya bütün janrları üstələyib? Nə qədər gülmək olar, başqa dərd-sərimiz yoxdur?

Hələ verilişlər bir yana, aparıcı geyimləri də diqqəti çəkməyə bilmir. Veriliş boyu fikri ya paltarının yaxasında, ya da ətəyinin uzun kəsiyini ora-bura çəkişdirmək olan bəzi aparıcılarımız var. Qolunu qaldırıb qonağının çiyninə qoyan, milli dəyərlərimizə əks şəkildə qonağı ilə rəftar edən, qonaqlarına lüzumsuz suallar verən, şəxsi həyatı tamaşaçı qarşısına çıxaran, müzakirəsini açan aparıcılarımız var. Azərbaycan dilinin qrammatik qanunlarını hər cümləsində pozan, danışığına başqa dillərdən sözlər daxil edən, ləhcə ilə danışan, durğu işarələrindən sonra fasilə verməmdiyinə görə anlaşılmaz cümlələr quran, kameralara alışa bilmədiyi hər an özünü büruzə verən, bunun da nəticəsində sanki rəsmi bir xəbər oxuyurmuş kimi təsir bağışlayan aparıcılar var.

Xalq artisti, tanınmış diktor Ofeliya Sənani deyir: "...Aparıcılarda vurğu xoşuma gəlmir. Danışığın danışıq tərzi var. Aparıcı danışır, elə bil ki, üzündən nəsə oxuyur. Halbuki heç nə oxumur. Uşaqlar, gənclər üçün verilişlər yoxdur. Bu həqiqətən də mənim yaralı yerimdir. Biz o vaxt yeni tamaşaçıları yeni gənclərlə, müğənnilərlə tanış edirdik. İndi nədənsə elə verilişlər görmürəm, məndən heç kim inciməsin".

Bəli, Ofeliya xanımın da söylədiyi kimi, gənclərlə və uşaqlarla bağlı verilişlər yox dərəcəsindədir. Hansı ki, o uşaqlar ötən 18 ildə bu ölkədə elə vətənpərvər böyüdülər ki, 2020-ci ildə Ali Baş Komandanımızın bir əmri ilə Qarabağa yollanıb 30 il düşmən tapdağı altında qalan torpaqlarımızı azad etdilər. Üç mindən artıq şəhidimiz oldu, minlərlə gənc sağlamlığını itirdi. Həmin şəhid və qazilərimiz haqqında gözəl bir verilişə baxa bilmişikmi?..

## Görmək istədiklərimiz, görə bilmədiklərimiz...

Professor Qulu Məhərrəmli deyir: 44 günlük Vətən müharibəsi zamanı tamaşaçılar arasında Azərbaycan televiziyalarına ciddi maraq yarandı. Cəmiyyət onlara lazım olan əsas informasiyaları məhz yerli televiziyalardan əldə edə biləcəyi gerçəyini anladı. Bu mötəbərliyi indi qoruyub saxlamaq, inkişaf etdirmək, cəmiyyətə çox ciddi mesajlar vermək, ciddi problemləri açıq şəkildə müzakirə etmək, televiziyaların təbliğat yükünü azaltmaq çox önəmlidir. Eyni zamanda, araşdırma aparmaq olar ki, tamaşaçılar xarici kanallarda daha çox hansı verilişlərə baxırlar. Həmin verilişlərin oxşarını necə yaratmaq olar? Bütün bu məsələlər kompleks şəkildə həyata keçirilməlidir.

Bəli, 44 günlük Vətən müharibəsində tamaşaçılar xəbərləri yalnız televiziya kanallarından ala bilirdilər. Müharibə zamanı telekanallar da insafən xəbərləri vaxtlı-vaxtında çatdırmağa çalışır, onların hər birində bir operativlik hiss olunurdu. Lakin müharibə bitdi, sanki telekanalların da fəaliyyəti bitdi. Biz müharibə iştirakçısı olan gənclərlə bağlı daimi bir verilişin açılacağını gözləyirdik. Gözləyirdik ki, qazilərimiz, şəhid yaxınları, dostları həmin verilişlərə dəvət olunacaq, onların döyüş yollarından, şəhid gənclərimizdən söhbət açılacaq. Müharibə bitəndən bir qədər sonrayadək bəzi verilişlərə çağırılırdı qazilərmiz, şəhid ailələri, lakin çox keçmədi ki, bu ənənə unuduldu. Yəqin qaldı müharibənin ikinci ildönümü ərəfəsinə.

Müharibənin acılarından əziyyət çəkən uşaqlarımız var, onları verilişlərdə görmək istəyirdik, təəssüratlarını, ümumiyyətlə, müharibə onlar üçün nədir suallarının cavabını balacalarımızdan dinləmək istəyirdik, lakin görə bilmədik. Artıq 1 il 8 ay ötür tarixi Zəfərimizdən. Ötən dövr ərzində telekanallarımızda Vətən müharibəsindən bəhs edən sanballı bir filmə, televiziya tamaşasına, verilişə, bir gözəl klipə baxa bilmişikmi? Bir yaddaşlara hopan mahnı dinləyə bilmişikmi? Qaçqın, köçkün, didərgin kimi ömrünün 30 ilini qurban verən insanların söhbətlərinə qulaq asa bilmişikmi?

Televiziya kanallarımızda görmək istədiklərimiz gördüklərimizdən qat-qat çoxdur. Tək müharibə, Zəfərimizlə bağlı deyil, gündəlik həyatımızda qarşılaşdığımız problemlər, aktual mövzular, ziyalı məsləhətləri, ailə-məişət mövzuları, tariximizi əks etdirən verilişlər indi yerini verib ya mətbəxə, ya şoulara, ya da məqsədinin nə olduğunu anlamadığımız verilişlərə.

Qulu Məhərrəmlinin vurğuladığı kimi xarici telekanallarda tamaşaçıların hansı verilişə daha çox baxdıqları da nəzərə alınıb. Bu gün Azərbaycan telekanallarında əksər veriliş elə xarici kanallarda gedən verilişlərin təkrarıdır. Səhnə dizaynından tutmuş verilişin mövzusunadək eynidir. Lakin bu verilişlər də səmimi təsir bağışlamır. Bir sünilik, quruluq, səhv qurulan dialoq, yanaşma adamın necə deyərlər, zövqünə balta çalır. Xarici kanallardan söz düşmüşkən, xarici filmlərin dublyajından heç söhbət açmayım. Çünki bu, tamaşaçıların ən yaralı yeridir. Çünki hazırda telekanallarda peşəkar jurnalistlər barmaqla sayılacaq qədərdir. Televiziya isə təsadüfən ona tərəf üz tutanları deyil, peşəkarları sevir.

## Televiziyalar dəyişmək istəmir, tamaşaçı baxmaq istəmir ...

Və ya güzgü çoxdur, baxan yoxdur. Bütün dövrlərdə insanların ən çox müraciət etdiyi telekanallar olmasına baxmayaraq. O televiziya kanalları ki, insanların onlarda görmək istədikləri çox məqamlar var. Ən birincisi telekanallar asudə vaxtın dostu olmalıdır. İkincisi maraq dairəsi yaradaraq tamaşaçını özünə bağlamalıdır. O mənada ki, elə idarəetmə pultu alınan zaman yalnız o kanal axtarıla. Üçüncüsü isə bütün yaşlarda olan insanların zövqünü oxşamalı, gələcəyimiz olan uşaqların tərbiyəsində böyük rola malik olmalıdır. Yadımdadır, biz balaca olanda kimin valideynləri işləyirdisə, uşaqları evlərdə televizorla başbaşa qoyub rahatlıqla işə gedirdilər. Çünki arxayın idilər ki, uşaqlar nə qədər televizora baxsalar da, onlara ziyan gələ bilməz. Yaxşı xatırlayıram, mütəmadi Azərbaycan filmləri, tamaşaları, gözəl verilişlər, konsertlər bir-birini əvəz edirdi. Bax ki, baxasan. Aparıcılardan mükəmməl nitq öyrənmək, film, tamaşalardan mentalitetimizi, veriliş və konsert proqramlarında aparıcı və müğənnilərdən abırlı və zövqlü geyimlər əxz etmək olurdu.

İndi necə? Televizorla uşaqları başbaşa qoyub bir neçə saatlığa evdən ayrılmaq olarmı? Uşaqlar televiziya kanallarında nələr görməzlər, nələr eşitməzlər?.. Yuxarıda bəhs etdiklərimizin hamısını. Odur ki, əksər valideyn övladlarına yalnız öz nəzarəti altında televizora baxmağa icazə verir. Çünki bütün telekanalların hamısı baxmalı deyil. Uşaqların isə öz yaşına uyğun veriliş tapması mümkün deyil.

Beləliklə tamaşaçılar əksər televiziya kanallarında yayımlanan verilişlərin keyfiyyətindən qətiyyən razı deyil. Bu səbəbdən də həmin telekanallara, ümumiyyətlə, baxmamağı seçirlər. Lakin baxmamaq məsələnin həlli deyil. Bu, kimlərinsə seçimidir ki, bununla da problem bitmir. Problemin kökündən həlli isə görünür, hələlik mümkün deyil. Çünki həmin telekanallar haqqında dəfələrlə tənqid söylənilib, məsləhətlər verilib, yollar göstərilib, lakin ortada elə bir fərq yoxdur. Odur ki, telekanallar tamaşaçılarını itirirlər. Bundan özləri nə qədər narahatdırlar, deyə bilmərəm. Onu deyə bilərəm ki, belə davam edərsə, o güzgülərə özlərindən başqa baxan olmayacaq. Və ümidvaram ki o güzgülərə baxa-baxa bir gün gələcəyi də görə biləcəklər. Öz əlləri ilə yaratdıqları gələcəyi...

*Mətanət MƏMMƏDOVA*

# Qanları ilə Vətən torpağını suvaran şəhidlər

Vətən müqəddəsdir. Heç bir məfhum bu qədər böyük mənanı ifadə edə bilməz. Sonu görünməyən bir sevgidir, vətən sevgisi. Dünyanın hansı qitəsində yaşasan da Vətən sənin üçün ən ülvi bir məkandır. Daşı da, qayası da sənə doğma və əzizdir. Vətən qarşısında hər kəs məsuliyyətlidir və onu müdafiəsidə durmaq isə hər kəsin borcudur. Şərəfli və məsuliyyətli bir vəzifədir onu qorumaq və müdafiə etmək, lazım gələrsə, qan tökmək. Tökülən qan hədər getməz... Vətən öz torpaqlarını, sərhədini qoynuna aldığı və yetirdiyi övladları ilə qoruyur. İnsana verilən yaşamaq hüququndan keçənlər, Vətən yolunda şəhid olanlar ən yüksək zirvəyə yüksəlirlər. Qəhrəmanlıq və ərənlik məktəbi bu torpağın tarixinə yazılıb. Odur ki, tarixdən dərs alanlar bu torpağın qəhrəmanına çevrilirlər. Tarixi dönəmlərdə olduğu kimi, müasir dövrümüzdə də Azərbaycan oğulları öz qanları ilə Azərbaycan torpağı üzərinə "VƏTƏN" sözünü həkk edirlər. Son otuz ilin hadisələri bunu bir daha deməyə əsas verir. İstər Birinci Qarabağ müharibəsində, istərsə də Vətən müharibəsində minlərlə Azərbaycan oğlunun vətənin müdafiəsinə qalxması tariximizin səhifəsində qürurlandırıcı bir salnamədir. Bir ailədən, bir obadan boy atanlar, Azərbaycan kimi məmləkətin əbədi dünyasının sakini oldular. Hər bir ailənin övladına çevrildilər.

## 26 İYULDA DOĞULANLAR

Həyatın qəribə gedişləri var. Ayrı-ayrı ailədə doğulub və bir xalqın övladına çevrilən, bir gündə anadan olub və eyni tale yaşayan oğullarımız var. Bu gün doğum günlərini qeyd etdiyimiz üç şəhidimiz haqqında söz açacağam. 26 iyul onların doğum günüdür. Vətəni harayına səs verən igid oğulların həyat hekayələrindən qısa bir şəkildə söz açacağam.

2016-cı il Aprel döyüşləri kimi tariximizdə yer alan hadisələr zamanı şəhidlik zirvəsinə yüksələn Rəşid Rövşən oğlu Mehdiyev. 26 iyul 1990-cı ildə Salyan rayonunda anadan olan Rəşid 26 yaşında ikən şəhidlik zirvəsinə yüksəlir. 2 aprel 2016-cı il onun şəhid olduğu tarixdir. 26 ildə qısa bir həyat yolu keçsə də, onu tanıyanların yaddaşında silinməz izlər salıb. Rəşid Mehdiyev Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. Arzularını artıq həyata keçirmək üçün addımlar atırdı. Əlbəttə ki, Rəşid orta təhsilini başa çatdırdıqdan sonra istənilən ali məktəbə daxil ola bilərdi. Lakin o, ali hərbi təhsil almağı, zabit kimi Vətənə xidmət etməyi, erməni tapdağı altında qalan torpaqlarımızın azad olunmasında yaxından iştirak etməyi qərara alır. Bu istəyi reallaşdırmaq üçün Rəşid 2008-ci ildə Heydər Əliyev adına Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinə daxil olur və 2011-ci ildə həmin məktəbi bitirir.



Şəhid Rəşid Mehdiyev 26.07.1990~05.04.2016

Üzərinə düşən bütün vəzifələri şərəflə və ləyaqətlə yerinə yetirərək tez bir zamanda baş leytenant rütbəsini alır və Gəncədə yerləşən "N" saylı hərbi hissədə taqım komandiri kimi xidmət edir. 2016-cı il Aprel döyüşləri zamanı Rəşid ərizə yazaraq könüllü olaraq döyüşlərə qoşulur. Rəşid topçu kimi ordumuzun aprelin 2-də işğaldan azad etdiyi Talış kəndi ətrafındakı yüksəkliklər yaxınlığında ermənilərin bir neçə texnikasını sıradan çıxarır. Nəticədə, baş leytenant Rəşid Mehdiyev 2016-cı ilin aprel ayında Azərbaycan-Ermənistan təmas xəttində baş verən atışma zamanı qəhrəmancasına şəhid olur.

Bir ananın dilindən süzülüb gələn bayatını vurğulamaq yerinə düşər:

Əziziyəm Salyana,
Rəşid gəlməz Salyana.
Necəsən bir ah çəkim...
Kür quruya, Sal yana.

Əzizim meyxanəyə,
Şeh düşüb meyxanəyə,
26 il bala saxladım,
Çıxarmadım toyxanəyə.

Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı olan Rəşid Mehdiyev ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilib.

## QISA VƏ ŞƏRƏFLİ YOL DİLLƏRDƏ DASTANA ÇEVRİLDİ

Elimdar Səlimxan oğlu Səfərov. Artıq şəhidlik zirvəsində yer alan vətən oğlunun keçdiyi qısa və şərəfli yol dillərdə dastana çevrilib. 26 iyul 1992-ci ildə dünyaya gəlib. Yardımlı rayonunda yayın isti günündə. Tale elə gətirir ki, o da Aprel döyüşünün şəhidinə çevrilir. 2 aprel 2016-cı ildə şəhid olur. Eyni gündə anadan olub, eyni gündə şəhid olan vətənin iki şəhid övladı: Rəşid və Elimdar. Cəmi 24 qış, 24 bahar yaşasa da, böyük bir hekayəsi var. Vətənə bağlı oğul idi. Deyilənə görə, çox güclü idi, onun qollarını heç kim qatlaya bilməzdi. Bütün yarışlarda, əməliyyatlarda hər zaman birinci idi. Vətənə, Bayrağa, İslami dəyərlərə çox bağlılığı onu ətrafında olan insanlara sevdirmişdir. Bu sevgi ondan düşmənə qisas almağa güc verdi.

Vətən torpağının azadlığı hər bir şeydən üstündür. Azərbaycan belə oğulları ilə fəxr edir. Azərbaycan Silahlı Qüvvələrinin giziri idi Elimdar. Ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı ilə təltif edilib.

## 28 İLLİK ÖMRÜN ŞƏHİDLİK ZİRVƏSİ

Daha bir şəhid övladımız - Toğrul Səyyad oğlu Məmmədov. Toğrul da tarixin bu günü dünyaya göz açıb. Toğrul 14 iyul 2016-cı ildə Azərbaycan-Ermənistan təmas xəttində ermənilərin atəşkəs rejimini pozması nəticəsində şəhid olub.

Onun tərcümeyi-halına həkk edilən yazıları oxuyuruq: Toğrul Məmmədov 1988-ci ilin 26 iyul günündə Babək rayonunun Şıxmahmud kəndində anadan olub. Orta təhsilini Şıxmahmud kənd tam orta məktəbində alıb, 2002-ci ildən Naxçıvan Muxtar Respublikası Heydər Əliyev adına Hərbi Liseydə davam etdirmiş və 2005-ci ildə buradan məzun olmuşdur. 2005-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuş və 2009-cu ildə leytenant hərbi rütbəsi ilə burada təhsilin sonra yetirmişdir. Daha sonra Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim-Tədris Mərkəzində 1 illik ixtisasartırma kursu keçmişdir.

Kapitan Toğrul Məmmədov 2016-cı ilin iyulun 14-ü Azərbaycan-Ermənistan təmas xəttində ermənilərin atəşkəs rejimini pozması nəticəsində şəhid olur. İyulun 15-i isə Toğrul Məmmədov doğulduğu Babək rayonunun Şıxmahmud kəndində son mənzilə yola salınır.

Uşaqlıqda valideynlərini itirən Toğrul çox erkən ailəyə başçılıq edib. Balaca qardaş və bacısına ata, ana olmaq nə qədər çətin olsa da buna qatlaşmalı olur. Sonradan isə Azərbaycana oğul olur. Demək, sədaqət ocağa xidmətdən başlayır. Ailəsini, ocağını sevən, Vətənini də sevər. Ona oğul olar. Azərbaycanın qəhrəman oğlu Toğrul kimi.

Vətən sevgisi neçə-neçə vətən oğlunun ömrünü, arzularını yarımçıq qoysa da, böyük bir arzularını gerçəkləşdirdi. 44 günlük Vətən müharibəsində bütün həşidlərimizin qisası alındı. İşğal altında olan torpaqlarımız azad edildi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli ordumuzun əks-hücum əməliyyatı Böyük Qələbəmizlə başa çatdı. Otuz ilə yaxın həsrətdən sonra doğma yurdlarımıza qovuşduq, ərazi bütövlüyümüz təmin olundu. Dövlət, xalq və ordu birliyi dəmir yumruq olub düşmənin başını əzdi. Azad torpağımızda şəhidlərimizin ruhu da azadlığa qovuşub.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Avropa İttifaqı Azərbaycan üçün əsas ticari tərəfdaşdır"

**"Ölkəmizin Avropa Komissiyası ilə enerji sahəsində olan əməkdaşlığı artıq on beş ildən çox bir müddəti əhatə edir. Belə ki, Avropa İttifaqı ilə Azərbaycan arasında 2006-cı ildə Anlaşma Memorandumu, 2011-ci ildə isə Cənub Qaz Dəhlizi ilə bağlı Birgə Bəyannamə imzalanıb". Bu sözləri SİA-ya açıqlamasında deputat Cavid Osmanov deyib.**



Onun sözlərinə görə, Azərbaycanın başlatdığı və Avropa İttifaqının dəstəklədiyi enerji layihələri artıq Avropanın enerji xəritəsini tamamilə dəyişdirir: "Artıq Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft kəməri çəkilib. Həyata keçirilən enerji layihələri nəticəsində Azərbaycan öncə neft hasilatı, sonra isə qaz hasilatını icra etməyə başladı. Dünyanın meqa layihəsi olan 3500 kilometrlik Cənub Qaz Dəhlizi vasitəsilə bu gün Azərbaycanın təbii qazı Avropa qitəsinə çatdırılır. Cənub Qaz Dəhlizi iki ildən az müddətdir ki, artıq tam gücü ilə işləyir. Dünyada baş verən geosiyasi proseslər, qarşıdurmalar fonunda enerji təhlükəsizliyi məsələləri bu gün heç zaman olmadığı qədər vacib faktora çevrilib. Bütün ölkələr, xüsusilə də Avropa ölkələri üçün enerji təhlükəsizliyi gündəlikdə dayanan əsas məsələlərdəndir. Cənab Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu enerji siyasəti nəticəsində Azərbaycan Avropanın enerji təhlükəsizliyinin qarantı rolunda çıxış edir. Bu sahədə ölkəmizlə Avropa İttifaqı arasında enerji sahəsində uzunmüddətli, proqnozlaşdırılan və çox etibarlı əməkdaşlıq əlaqələrinin mövcudluğu böyük əhəmiyyətə malikdir. Ümumiyyətlə, Azərbaycan ilə Avropa İttifaqı arasında bir çox sahələri əhatə edən, o cümlədən neft, qaz və bərpaolunan enerji mənbələrini, hidrogeni, enerji səmərəliliyini və digər məsələləri nəzərdə tutan enerji dialoqu mövcuddur. Ölkəmizdə bərpaolunan enerjinin istehsalı sahəsində olan böyük potensial Avropa İttifaqı tərəfindən artıq yüksək dəyərləndirilir. Belə ki, külək və günəş enerjisindən istifadə edilməsi üçün sərmayə qoyuluşu prosesinə başlanıb.Təkcə Qarabağ və Şərqi Zəngəzurun azad olunmuş ərazilərində günəş və külək enerjisinin potensialı 9200 meqavatdır. Xəzər dənizinin də külək enerjisi üzrə yüksək potensialını nəzərə alsaq yaxın gələcəkdə Azərbaycanda çoxlu sayda bərpaolunan enerji mənbələrinin yaradılacağını əminliklə demək olar. Həmçinin Xəzər dənizində gələn illər ərzində istifadəyə veriləcək yeni qaz yataqları da mövcuddur. Bərpaolunan enerjidən istifadə nəticəsində ixrac üçün daha çox qaz ehtiyatı təmin olunacaqdır.



İyulun 18-də ölkəmizlə Avropa ittifaqı arasında imzalanan Memorandumu gələcək əməkdaşlığın yol xəritəsi adlandıran Prezident cənab İlham Əliyev planlaşdırılmış bütün məsələlərin icra olunduğunu diqqətə çatdırdı. Həmçinin görülməli olan işlərdən bəhs edən ölkə başçısı şəbəkələrin qurulmasının əsas məsələlərdən biri olduğunu qeyd etdi. Azərbaycanın coğrafi mövqeyini və müasir daşımalar infrastrukturunu nəzərə alaraq tərəflər şəbəkənin qurulması üzərində daha fəal çalışmalıdırlar. Bir halda ki, Xəzərin qərb sahilində Azərbaycanın Xəzərdə ən iri ticarət donanması, müasir infrastruktur, gəmiqayırma imkanları, yeni dəniz limanı, bütün qonşu ölkələri birləşdirən dəmir yolları vardır.

Bundan əlavə, Azərbaycan ilə Avropa İttifaqı arasında yeni saziş üzərində də iş aparılır. Bu ikitərəfli əməkdaşlığa mühüm töhfə ola bilər və bu istiqamətdə hazırlıq işləri gələn ay başa çata bilər. Eyni zamanda, Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində də ikitərəfli qaydada işlər aparılır. Avropa İttifaqı Azərbaycan üçün əsas ticari tərəfdaşdır. Bir sözlə, mövcud əlaqələrin davamlı olaraq inkişaf etdirilməsi Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin böyük gələcəyindən xəbər verir".

***Arzu Qurbanlı***

# DİQQƏT:

## Laçında daha bir erməni həyasızlığı!

**Zabux kəndində qanunsuz məskunlaşan Livan və Suriya erməniləri saxta dini bayramlarını keçiriblər, Rusiya sülhməramlıları isə onların mühafizəsini təşkil ediblər**

Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri Qarabağ ərazilərində erməni özbaşınalıqları davam edir. SİA xəbər verir ki, bu dəfə Azərbaycanın Laçın rayonunun Zabux kəndində qanunsuz məskunlaşan Livandan və Suriyadan olan separatçılar ”vardavar” (sulaşma) adlı saxta dini bayramlarını keçiriblər.





YAŞAT



### Zabuxda ”vardavar” adlı saxta bayram şənliyi

Üstəlik, dırnaqrarası bayramın keçirilməsi zamanı məlum olub ki, ermənilərin arasında qondarma ”dqr”in ”polis gücləri” adı altında formalaşmış silahlı terrorçu dəstələri də yer alıb.

Bu arada, mərkəzləri Xankəndidə yerləşən separatçıların internet resursları onu da yazıblar ki, sözügedən ”bayram” terrorçu rejimin ”tarixi mühitin qorunması” adlı qurumunun təşkilatçılığı ilə baş tutub.





### ”Dqr”in ”polisi” adı altında silahlılar (formalarından seçilirlər) və Suriya-Livan erməniləri

Zabux kəndinin sözdə ”icma rəhbəri” əslən Livan terrorçularından olan Andranik Çavuşyan erməni mediasına açıqlamasında bir daha ”bayramlarını doğma torpaqlarında keçirdiklərini” vurğulayıb. Qeyd edək ki, bu, yeni Laçın yolunun istifadəsindən sonra Zabuxdan və Laçın şəhərindən çıxmayacaqlarını bəyan edən, hətta silahlı müqavimət göstərəcəklərini deyən həmin terrorçu Çavuşyandır.

### Qara köynəkli terrorçu Çavuşyan

Maraqlıdır ki, yeni Laçın yolunun tikintisinin başa çatdırılmasından (iyulun sonu, avqustun əvvəlləri-R.R.) sonra Laçın şəhəri ilə yanaşı, Zabuxda qanunsuz olaraq yaşayan ermənilərin Ermənistana köçürüləcəyi haqda məlumatların olmasına baxmayaraq, məhz bu istiqamətdə yaşayan separatçılar hələ də köçmələri üçün heç bir hazırlıq işləri aparmırlar. Bu fakt isə üçtərəfli bəyanatın kökündən pozulması anlamını daşıyır və rəsmi Bakının son xəbərdarlıqları artıq qüvvəyə minə bilər.

### Az qaldı...

Əgər bu gün Laçında bənzər olaylar yaşanırsa və Rusiya sülhməramlıları hələ də üzərlərinə düşən məsuliyyətlərini icra etmirlərsə, yaxud bunu qəsdən törədirlərsə demək ki, sözügedən prosesin ləngiməsinə çalışan qüvvələrin ayaqlarının yer aldığı qənaətinə də gələ bilərik.

Beləliklə, Zabuxda saxta bayramlarını qeyd edən separatçıların və eləcə də silahlı ”polis güclərinin” məhz RSK-nın nəzarəti altında oyunbazlıqlar sərgiləmələrinə və nəticələrin hasil edilməsinə, xüsusilə RSK-nın bu kimi hadisələrə göz yummasının səbəblərinin araşdırılmasına ciddi ehtiyac yaranıb.

*Rövşən RƏSULOV*



## YAP Bərdə rayon təşkilatının əməkdaşları qazi Fariz Hümbətovun ailəsində olublar



YAP Bərdə rayon təşkilatı və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən 22 iyul Milli Mətbuat və Jurnalistika gününə həsr edilmiş tədbirdən sonra YAP Bərdə rayon təşkilatı və rayon Gənclər və İdman İdarəsinin kollektivi rayonun media nümayəndələri ilə birlikdə Zümürxan kəndində yaşayan Vətən müharibəsi əlili Hümbətov Fariz Əlövsət oğluna baş çəkmiş, ailəsində olmuşlar. Qazi ilə görüş zamanı YAP Bərdə rayon təşkilatının sədri Fəqət Şadlinskaya Vətən müharibəsində müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin vahid komandanlığı altında rəşadətli Azərbaycan Ordusunun qazandığı Qələbədən danışmış, torpaqlarımız məhz Fariz kimi igidlərin sayəsində işğaldan azad olunduğunu önə çəkmişdir. Rayon Gənclər və İdman İdarəsinin rəisi Hikmət Ələkbərli, YAP Bərdə rayon təşkilatının təlmatçısı Əlövsət Məmmədov, media nümayəndələri Vüsal Rafiqoğlu, Zahir Süleymanov, Əbülfət Mirzəyev və başqaları Fariz kimi Qəhrəman oğullarımızla qürur duyduqlarını söyləmişlər.

Vətən müharibəsi əlili Hümbətov Fariz Əlövsət oğlu 4 il idi ki, ”N” saylı hərbi hissədə müddətdən artıq hərbi xidmətdə qulluq edirdi. Vətən müharibəsi başlayan ilk gündən Fariz Talış, Suqovuşan, Ağdərə istiqamətində gedən döyüşlərdə tankçı olaraq iştirak etmişdir. Muharibənin son günlərində ayaq, əl və kürək nahiyəsindən ağır yaralanmışdır. Dövlət tərəfindən qayğı nəticəsində bu gün həyatdadır. ”YAŞAT” Fondundan Fariz Hümbətovun ailəsinə mənzil şəraitinin yaxşılaşdırılması üçün 10 min manat köməklik edilmişdir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sərəncamı ilə Fariz Hümbətov ”Cəsur döyüşçü” və ”Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif olunmuşdur. Görüş zamanı qazi Fariz Hümbətov Vətən müharibəsi zamanı olduğu döyüşlər haqqında danışmış, anası Nubar xanım və atası Əlövsət əmi müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə və ölkənin Birinci Vitse-prezidenti Mehriban xanım Əliyevaya şəhid ailələri, müharibə əlilləri və iştirakçılarına göstərdikləri diqqət və qayğıya görə dərin minnətdarlıqlarını bildirmişlər. Sonda tədbir iştirakçıları qazi Fariz Hümbətov və ailəsi ilə birlikdə şəkil çəkdirmişlər.

## Bakcell Azərbaycanın ən sürətli mobil şəbəkəsidir




Bakcell növbəti dəfə Azərbaycanın ”Ən sürətli mobil şəbəkəsi”* kimi tanınıb. Bu mükafat mobil və genişzolaqlı şəbəkələrin intellektual təhlili, mobil tətbiqetmələrin və texnologiyaların sınaqdan keçirilməsi üzrə dünya lideri olan Ookla® şirkətinin müstəqil təhlili nəticəsində verilib.

Mükafat dövründə Ookla® Azərbaycanda ən sürətli mobil şəbəkəni müəyyən etmək üçün 2022-ci ilin I və II rübüərzində ölkəninmobil rabitə istifaçiləri tərəfindən Speedtest® iOS və Android mobil tətbiqetmələri vasitəsilə keçirilmiş 71 mindən çox testi müqayisə edib. Nəticədə”Bakcell”in mobil şəbəkəsi bu ilin I və II rübüüzrə ən yüksək yükləmə (download) və ötürmə (upload) sürəti nümayiş etdirib.

”Ookla tərəfindən təqdim edilən ”Speedtestmükafatı” müstəsna internet sürəti və əhatə dairəsini təmin edən seçilmiş şəbəkə operatorları üçün nəzərdə tutulub. ”Azərbaycanın ən sürətli mobil şəbəkəsi” mükafatını Bakcell şirkətinə böyük məmnuniyyətlə təqdim edirik. Bu mükafat şirkətin 2022-ci ilin I və II rübləri ərzində göstərdiyi misilsiz nəticələrin təsdiqidir. Nəticələr abunəçilər tərəfindən ”Speedtest” proqramı vasitəsilə edilən sınaqların ətraflı təhlili vasitəsilə əldə olunub”, deyə Ookla şirkətinin baş icraçı direktoru Doug Suttles bildirib.

# Cəmil Həsənli də belə getdi: Əli Kərimlinin bayramıdır

**Elmi həyatında deyə bilmərik, amma siyasi həyatında heç bir uğur qazana bilməyən, siyasi həyatının son dövrlərini düşdüyü biabırçı vəziyyətləri ilə üz-üzə qalan, nəticədə gec də olsa istefa qərarı verən Cəmil Həsənlinin həmin addımından ən çox sevinən bəlkə də AXCP sədri Əli Kərimlidir, çünki o adıçəkilən ölü qurumun birbaşa sədri olmasa da onu kənardan idarə edirdi, indi isə bilavasitə sədrlik etmək şansı ortaya düşüb. Amma**

Amma mümkündür ki, ölü qurum olmasına rəğmən, xaricdən sifarişlər qəbul edib babat maliyyə qazanan "Milli Şura"da sədrlik kreslosu uğrunda savaş da elan edilsin. Ən azından, koordinasiya şurasının üzvləri Gültəkin Hacıbəyli, Tofiq Yaqublu dırnaqrarası post uğrunda gizli cəbhə açacaqlar. Belə ki, "Milli Şura" daxilində də müəyyən qruplaşmaların mövcud olması kimsəyə sirr deyil. Fəqət, Əli Kərimli kimi təhlükəli fərdlə daxili savaş aparmaq da gözə alınmalıdır. Onun hər an arxadan xain zərbəsi endirməsi mümkünlüyü kifayət qədər çoxdur.

## Professorun üst-üstə düşməyən ifadələri

İndi isə gəlin Cəmil Həsənlinin istefa qərarı ilə bağlı "BBC Azərbaycan"a verdiyi müsahibəsinin ən nəzərə çarpan ifadələrin analizini aparaq. Onun dediyinə görə, artıq istefa haqqında təklifini verib. Maraqlıdır, Cəmil Həsənli qərarını konkrertləşdirməyib ki? Özünü siyasət aləmində hiss edən istənilən şəxs atacağı addımını konkrertləşdirməlidir və bununla bağlı qəti qərarını verməlidir və həmin reallıq siyasi aksiomadır. Amma görün o nə deyir? Deyir ki, istefası ilə bağlı təklifini verib (???).

Daha sonra deyir ki, 8 ildir təşkilata rəhbərlik edib. Ötən 8 ildə onun rəhbərliyinin hansı tərəfi yadda qalıb? Yadda qalan "Milli Şura"nın parçalanması, istefa dalğaları və qarğış-nifrinlər O, bununlamı fəxr edir əcəba?




## Londonda yaşayan "Milli Şura"nın sədri vəzifəsindən gedir

Əlavə edir ki, "İnsanları nəyəsə çağırırsansa, özün prosesin önündə olmalısan. Londonda, Parisdə, Vaşinqtonda oturub riskli bir cəmiyyətdə insanları etiraza çağırmağın əlavə mənəvi yükü var. Yaşın elə bir həddidir ki..."

Cəmil Həsənlinin birdən-birə yadına düşüb ki, həyatda "mənəviyyat" deyilən bir məsələ də var imiş və xaricdə oturub insanları küçələrə səsləmək, sabitliyi pozmağa yönəlmiş çağırışlar etmək heç də yaxşı iş deyilmiş və s...

## Yaşının bu vaxtında onsuz da yetərli qədər biabır olub...

Elə isə Cəmil Həsənli Londonda oturub videogörüntülər vasitəsi ilə çənə vuranda niyə bu barədə düşünmürdü? Sərf etmirdi? Yaxud, hazırda Avropada oturub siyasi laqqırtılarla erməni lobbisindən pul qazananlara niyə səslənmir ki, illərdir apardıqları bu "mübarizə" əhəmiyyətsiz bir zaddır və özlərini boş yerə həlak etməsinlər?

Ancaq axırda bir ifadəsini düzgün buyurub, deyib ki, "hər yerdən, o cümlədən də bu dünyadan gərək vaxtında gedəsən. Aktiv siyasətdə və "Milli Şura"nın rəhbərliyində qalmağı düşünürəm".

Lakin daha yaxşı olardı ki, Cəmil bəy ümumiyyətlə, sədrlikdən deyil, birdəfəlik "Milli Şura" üzvlüyündən də getsin, yaşının bu vaxtında onsuz da yetərli qədər biabır olub, bundan sonrakı biabırçılıqları da üzvü olduğu qurumda yaşamaq onun üçün dəhşətli hallar yaşada bilərdi. Nə qədər gec deyil, tez oradan canını qurtarsın.

Bizə isə hazırda Əli Kərimlinin dirijor çubuğu ilə idarə edilən bir lazımsız qurumun daxilində sonrakı proseslərdə nələrin baş verəcəyini izləmək qalır, görək sonra nə olacaq. Hələlik isə AXCP sədri bayram edir...

***Rövşən RƏSULOV***

***P.S. Yeri gəlmişkən, yaxınlarına doğru-dürüst sahib çıxa bilməyən birinin siyasi səhnədə uğur qazanması zatən əvvəlcədən bəlli görünmürdü...***

---

# Zəif insanların güclü görünmə təqlidi...

*Heç kimin xəyal edə bilmədiyi şeyləri xəyal edib, özlüyündə bunu gerçəyə çevirməyə çalışan dayaz düşüncəli insanlar*

**"...Boş ümidlərdən və gerçəkləşməyəcək arzulardan uzaqlaşmaq insan üçün ən böyük qazancdır". İngilis dramaturq və şairi Vilyam Şekspirə məxsusdur bu fikirlər. Gəlin etiraf edək ki, elə bu gün də, bəzən heç kimin xəyal edə bilmədiyi şeyləri xəyal edib, özlüyündə bunu gerçəyə çevirməyə çalışan dayaz düşüncəli insanlar var .**

...Bəli, bu dəfə də erməniləri deyirəm.

Deməli, Avropa Komissiyasının sədri Ursula von der Lyayenin Bakıya etdiyi işgüzar səfər ermənilərə necə od qoyubsa, hələ də özlərinə gələ bilməyiblər.

Qeyd edilməlidir ki, Lyayenin Bakıya işgüzar səfərində artıq bir həftə ötsə də, erməni saytları hələ də bu məsələyə münasibət bildirməyə ara vermirlər. Günahlandırmağa, adam gəzirlər. Erməni rəhbərliyini naşılıqda ittiham edirlər. Nikolun kadrlarını ölkə siyasətini düzgün qurmamaqda günahlandırırlar.

Amma bütün bunlarla yanaşı onlara rahatlıq verməyən əsas sual budur: ...niyə Avropa Komissiyasının sədri Ermənistanı ayaqlayaraq, Azərbaycana gedir?

Axı, biz regionun, nəinki regionun bəlkə də dünyanın ən "demokratik ölkə"lərindən biriyik. Maraqlıdır ki, ermənilər özlərinə...elə özlərinə də məxsus təskinlik verməyi də unudmurlar.









Azərbaycanın, guya heç kimə maraqlı olmadığını deyirlər. Bakının bir az nefti qaldığını və o da "qurtarandan sonra" Cənubi Qafqazda bütün vəziyyətin Ermənistanın xeyrinə dəyişəcəyini bildirirlər. Yəni "Ermənistana tərəf böyük bir dönüş" olacaq.

Bəli...onda demokratik dünya nəhayət aydın görməyə və başa düşməyə başlayacaq ki, Cənubi Qafqazın yeganə "demokratik" dövləti kimi sırf Ermənistandan pay götürmək lazımdır.

...Hələ bu harasıdır, sən demə, dünya 44 günlük müharibədə demokratik bir ölkəyə, Ermənistana qarşı edilən "haqsızlığa" görə, rəsmi Bakıya sanksiyalar tətbiq etməyə məcbur olacaq. Hətta dünya Azərbaycanı işğal etdiyi "torpaqlardan çıxmağa belə məcbur edəcək".

Hə, deyim ki, ermənilərə görə, Azərbaycan hələ bununla da "canını qurtara bilməyəcək". Dünya rəsmi Bakını "artsax"a təzminat ödəməyə və onun "müstəqilliyini" tanımağa məcbur edəcək. Dardüşüncəli erməniyə görə, guya "bu, artıq demokratik Qərb üçün şərəf məsələsi olacaq". Çünki Ermənistan regionda demokratiyanın dirijoru kimi iqtisadi inkişaf baxımından da birinci yeri tutacaq. Buna artıq sözün də qurtardığı yer demək olar.

...Abırsızlıq, utanmazlıq, arsızlıq, ədəbsizlik, sırtıqlıq...görən yaradanın ermənidən əsirgəmədiyi bir şey qaldımı? Gərək ki, amerika filosof Erik Hofferin fikridir, o deyir ki, "...həyasızlıq zəif insanların güclü görünmə təqlididir".

..Məncə, filosofun fikrində elə də təhrifə yol vermədim.

***Ağasəf Babayev***

# Kommunal xidmətlərdə ciddi dəyişikliklər olacaq

## *Strategiyada nələr qeyd olunub?- Ekspert açıqladı*

**Xəbər verildiyi kimi, iyulun 22-də Prezident İlham Əliyev "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Strategiya nələri əhatə edir, qarşıdakı beşillikdə hansı nailiyyətlərin əldə edilməsi hədəflənir? Bu yazıda bu məsələlərdən bəzilərinə toxunacağıq.**

Azərbaycan postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan strateji inkişaf mərhələsinə daxil olur. Bu strateji dövrdə yeni nəsil struktur və institusional islahatlar vasitəsilə iqtisadi artımın müasir və dayanıqlı mənbələrinin hərəkətə gətirilməsi, milli iqtisadiyyatın innovasiya yönümünün və maliyyə dayanıqlığının daha da gücləndirilməsi, ölkə iqtisadiyyatının qlobal dəyər zəncirinə səmərəli inteqrasiya yolu ilə Azərbaycan dövləti öz qüdrətini daha da artırmaqla, yüksək rifah cəmiyyətinin qurulması istiqamətində yeni hədəfləri gerçəkləşdirmək əzmindədir.

Məhz bu məqsədlə "Azərbaycan?2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq olunmuş və bu prioritetlərə söykənən "2022?2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" hazırlanmışdır.

Strategiyanın qeyd olunan nailiyyətlər və qarşıya qoyulan hədəflər haqda bəzi məqamları qeyd etmək istərdik. Bu Strategiyanın reallaşması 2026-cı ilin sonuna ölkə iqtisadiyyatının simasında böyük dəyişikliklərə səbəb olacaq, iqtisadi artım tamamilə yeni keyfiyyət amilləri bazasında formalaşacaq, xüsusilə prioritet sahələrdə artım templəri sürətlənəcək, iqtisadiyyatın və məşğulluğun dayanıqlığı daha da güclənəcəkdir.

Özəl sektorun, o cümlədən mikro, kiçik və orta sahibkarlığın inkişafı yeni və daha səmərəli stimullar və inkişaf mühiti hesabına sürətlənəcək, özəl və xarici investorların ölkə iqtisadiyyatında fəallığı artacaq, qeyri-xammal ixracı genişlənəcəkdir.

Qeyri-neft/qaz sektoruna, xüsusilə ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsini təmin edən, ixrac potensialının artırılmasına və kənd yerlərində rifahın yüksəlməsinə töhfə verən rəqabətqabiliyyətli aqrar istehsal və emalı sənayesinə dövlət dəstəyi və investisiyalar cəlb olunacaq, innovasiyalar, habelə dövlət?özəl tərəfdaşlığı ilə bu sahədə resurs və xidmət təminatı gücləndiriləcək.

İnsan kapitalının davamlı inkişafı və yeni keyfiyyətə transformasiyası mühiti daha da təkmilləşəcək, milli iqtisadiyyatda innovasiyaların sürətlə mənimsənilməsi üçün zəruri ekosistem formalaşacaq, ölkənin yaşıl enerji məkanına çevrilməsi və ətraf mühitin sağlamlaşması prosesləri sürətlənəcəkdir.





İnnovasiyalar təşviq ediləcək, müasir texnoloji həllərin tətbiqi genişləndiriləcək, bu əsasda iqtisadiyyatın effektivlik əsasında inkişafı və rəqabətədavamlılığı təmin olunacaqdır.

Əhalinin sosial müdafiəsi, xüsusilə həssas təbəqələrin sosial təminatı gücləndiriləcək, pensiya sistemində mühüm keyfiyyət dəyişikliyi baş verəcəkdir. Nəhayət, ölkənin sosial-iqtisadi inkişafında tarixi dönüş dövrü və yeni strateji mərhələ olan işğaldan azad edilmiş ərazilərin bərpası və ölkə iqtisadiyyatına reinteqrasiyası əsasında bu regiona böyük qayıdış təmin ediləcəkdir.

Strategiyaya görə, energetika sektorunda tənzimləmə mühiti təkmilləşdiriləcək və liberal bazar prinsipləri tətbiq olunacaqdır. Bərpa olunan enerji mənbələrindən istifadə artırılacaq, enerji səmərəliliyi təmin ediləcəkdir. İqlim dəyişikliyinə qarşı mübarizə məqsədilə ekoloji təmiz nəqliyyat vasitələrindən və digər yaşıl texnologiyalardan istifadə genişləndiriləcəkdir. Nəticədə, energetika sahəsində dövlətin maliyyə yükü azaldılacaq və subsidiyaların mərhələli şəkildə aradan qaldırılması reallaşdırılacaqdır.

Elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payı 2026-cı ilədək 24%-ə çatdırılacaqdır (2030-cu ilədək 30% hədəfinə uyğun olaraq).

Sənəddə qeyd olunan dövrdə bu istiqamətdə müxtəlif tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Onlardan biri də "kommunal xidmətlərin vahid informasiya sistemi"nin yaradılmasıdır. Bu sistem 2022-2023 -də başa çatdırılmalıdır.

Bəs bu sistemin reallaşması nələri nəzərdə tutur? Elektron sistemlərin yaradılması üzrə ekspert Osman Gündüz bunu belə görür:

**1.** Vətəndaşlar bir şəxsi şəxsi kabinet vasitəsilə onlayn olaraq sistemdə bütün kommunal xidmətlər üzrə məlumatlarına nəzarət edir, hər ay üzrə sərfiyyatı izləyir, sayğacdakı məlumatla müqayisə edir.

**2.** Sistem ancaq ağıllı sayğacların tətbiqini nəzərdə tutur. Ağıllı sayğacda isə nəzarətçilərə ehtiyac olmur, sayğac məlumatları özü oxuyur, özü mərkəzə ötürür. Məlumatın ötürülməsi müxtəlif şəbəkələr, mobil şəbəkə və ya internet üzərindən ola bilər.

**3.** Ötürülmüş məlumatlar əsasında vahid prinsiplər üzrə "billing" sistemində sərfiyyat üzrə avtomatik hesablamalar aparılır və vahid mərkəzə ötürülür.

**4** Hər 3 kommunal xidmətin (elektrik, su və qaz sərfiyyatı ilə bağlı) məlumatları vahid bir mərkəzə yönəlir, burada vətəndaşın şəxsi kabineti formalaşır.

**5.** Ağıllı sayğaclar şəbəkədə, sistemdə baş verən nasazlıqlar haqqında məlumatları da qeyd edə və ötürə bilir.

**6.** Tarif dəyişikliyi avtomatik olaraq həyata keçirilir.

**7.** Xidmətin verilməsi ilə bağlı distant formada məhdudiyyətlər tətbiq etmək mümkündür.

**8.** Xidmətin verilməsində dayanma olarsa dərhal məlumat ötürülür.

**8.** Qeyri-qanuni müdaxiləyə dərhal reaksiya verə bilir və s".

Ekspert hesab edir ki, sistem tezliklə reallaşacaq: "Fikrimcə, Azəriqaz, Azərişıq və Azərsu-nu vahid elektron platformada birləşdirməyə cavabdeh olan ASAN və Energetika Nazirliyi qeyd olunan müddətdə layihəni başa çatdıra biləcəklər.

Ümid edirəm formalaşan elektron platforma üzərində, məlumatların toplanması və emalı üzərində, billing sistemləri üzərində, sayğac və xidmətin keyfiyyətinin ölçülməsi üzərində ictimai nəzarət imkanları da yaradılacaq.

Yeri gəlmişkən, Strategiyadan görmək olur ki, ölkədə rəqəmsal transformasiya ilə bağlı indiyədək icrası mümkün olmayan bir çox digər layihələrin reallaşması, uzun illər bu sektorla bağlı qəbulu mümkün olmayan qanunların və konsepsiyaların təsdiqlənməsi də adı çəkilən sənəddə nəzərdə tutulub.

Düşünürəm ki, Strategiyada müxtəlif istiqamətlərdə rəqəmsal transformasiyaya önəm verilməsi, bütün istiqamətlərdə rəqəmsal və innovativ tədbirlərin nəzərdə tutulması kifayət qədər əhəmiyyətlidir".

Göründüyü kimi, texnologiyaların inkişafı bütün sahələrdə olduğu kimi, kommunal təchicat sahəsində də yeni imkanlar yaradır, bu sahələrdəki idraəermənin effektivliyini artırır, itkiləri azaldır, operativliyi çoxaldır. Azərbaycan əhalisinin vacib kommunal xidmətlərlə fasiləsiz və keyfiyyətli təminatı üçün müasir texnologiyalardan istifadə edilməsinə çalışılır. Bunun nəticəsində tezliklə bu sahədəki problemlərin tam aradan qalxacağına şübhə qalmır.

***Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" istiqaməti çərçivəsində hazırlanıb*

ARAŞDIRMA

Səs
26 iyul
2022-ci il

# Məhəmməd Əlinin kəməri 6 milyon dollara satıldı



Amerikalı keçmiş boksçu, ağır çəkidə dünya çempionu Məhəmməd Əlinin 1974-cü ildə qazandığı çempionluq kəməri hərracda 6,18 milyon dollara satılıb.

SİA-nın məlumatına görə, kəməri amerikalı iş adamı, Amerika futbolu üzrə "İndianapolis Kolts" komandasının sahibi Cim İrsey əldə edib. Qeyd olunur ki, həmin iş adamı daha əvvəl Elvis Presli və Con Lennona məxsus gitaraları hərracda satın alıb. Məhəmməd Əli peşəkar boksda 1964 və 1974-cü illərdə mütləq dünya çempionu adını qazanıb. Bundan başqa, o, 1960-cı ildə Olimpiya çempionu olub. M.Əli 2016-cı ildə vəfat edib.

# "İnter" bu futbolçuya 70 milyon avro qiymət qoydu!



**"İnter" futbolçusu Milan Şkrinyara 70 milyon avro qiymət qoyub. Qol.az "Get French Football News"a istinadən xəbər verir ki, klub 27 yaşlı müdafiəçini bu qiymətdən aşağı satmağı düşünmür. Slovakiyalı oyunçu ilə maraqlanan PSJ-nin bu məbləği ödəməyə hazır olmadığı bildirilir.**

Qeyd edək ki, Şkrinyar ötən mövsüm bütün yarışlarda 48 oyuna çıxıb və 4 qol vurub.

# İnsultun xəbərçisi



Kardioloq Yaroslav Aşıxmin insultun iki prekursorundan danışıb. SİA-nın əldə etdiyi məlumata görə, bu barədə "Gazeta.Ru" xəbər verir. Beləliklə, həkimin sözlərinə görə, sinə nahiyəsində və başda olan şiddətli ağrılar bundan xəbər verə bilər. Aşıxmin qan təzyiqinə nəzarət etməyi tövsiyə edir. Mütəxəssisin fikrincə, əgər qan təzyiqi 140/90-dan yuxarı qalxırsa, bu, artıq təhlükəli vəziyyətdir.

Kardioloq əlavə edib ki, siqaret çəkənlər, həmçinin artıq çəki və hipertoniyadan əziyyət çəkən insanlarda infarkt və insult daha çox olur. Mütəxəssis rusları qan damarlarının tıxanması səbəbindən ürək problemlərindən qaçmaq üçün xolesterol səviyyələrinə nəzarət etməyə çağırıb.

Qeyd edək ki, daha əvvəl kardioloq Mariya Lopuxina insult və infarktın xəbərçisi olan simptomları sadalamışdı ki, bunlara da göz yummaq olmaz. Onun sözlərinə görə, infarkt adətən döş qəfəsində sıxıcı və yanma ağrıları, həmçinin boyun, çənə, kürək və hətta qarın nahiyəsində daimi və kəskin diskomfort hissi ilə müşayiət olunur.

*Ağasəf Babayev*



# ŞOK: 2 gündə yol qəzalarında 10 nəfər ölüb!

Həftəsonu Azərbaycanda baş verən yol-nəqliyyat hadisələri nəticəsində ölənlərin sayı açıqlanıb. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən SİA-ya bildirilib ki, iyulun 23-24-də respublikanın avtomobil yollarında ölümlə nəticələnən 8 yol-nəqliyyat hadisəsi baş verib. Nəticədə 10 nəfər ölüb, 2 nəfər isə xəsarət alıb.

# Çingiz xanın nəvəsinin sarayı tapıldı

**Türkiyədə arxeoloqlar qrupu Vanda bir vaxtlar Çingiz xanın nəvəsi Hülaku xan üçün tikilmiş möhtəşəm sarayın qalıqlarını aşkar etdiklərini açıqlayıblar.**

SİA "Haber Global"a istinadla xəbər verir ki, tədqiqat qrupuna daxil olmayan bəzi ekspertlər isə qalıqların Çingiz xan və ailəsi ilə əlaqələndirilməsindən öncə daha çox məlumatın lazım olduğunu söyləyərək alimləri ehtiyatlı olmağa çağırıblar.

Bildirilib ki, qazıntı işləri Monqolustan və Türkiyədən olan arxeoloqlar tərəfindən aparılıb. Komanda hələ də öz tapıntılarını və kəşf etdikləri artefaktların şəkillərini elmi jurnalda dərc etməyib.

Qeyd edək ki, Hülaku xan eramızın 1217-ci ildən 1265-ci ilə qədər yaşayıb və monqolların Yaxın Şərqdəki hərbi əməliyyatlarına rəhbərlik edib. O, xüsusilə 1258-ci ildə Bağdadın talan edilməsi, "Beytül Hikmət" kimi tanınan şəhərdəki böyük kitabxananın dağıdılması ilə nəticələnən yürüşləri ilə tanınır.



**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3220